Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.
("Maidə" surəsi, 9-cu ayə).

# İMAN

"İman" mədəni, maarif müəssisəsinin nəşri

Noyabr 2013 (Məhərrəm 1434) 05 (81)



# *Hər dərdin dərmanı olan sözlər*

*Əziz qardaşım! Əziz bacım!*

*Əgər dadına çatan, köməyinə yetən, harayını eşidən yoxdursa...*

*Əgər çətinliklərin nəhəng girdabında dalğadan-dalğaya atılan tənha qayıq kimi gözün sahili axtarırsa... Bataqlığa düşmüş adam kimi sənə uzanacaq əl sorağındasansa... Hər yerdən və hər kəsdən ümidin üzülübsə... O zaman Onun yardımına sığın, "YA MÜĞIS" deyə, Onu çağır!*

*Əgər evdə əlacsız xəstən varsa... Canından çox sevdiyin əziz adamın gözünün qarşısında əriyib-gedirsə... Təbiblərin dərmanı, həkimlərin əlacı fayda vermirsə... Xəstəni sağalda biləcək son ümid yerin olan məlhəmi almağa pulun yoxdursa... O zaman Onun şəfa qapısına üz tut, "YA ŞAFI" deyib dua et!*

*Əgər günahlarını yada saldıqca gözün qaralır, qəlbin sıxılırsa... Cəhənnəmin istisini öz bədənində hiss edirmiş kimi qovrulursansa... Əgər vicdanının məhkəməsi qarşısında boynunu büküb durduqca heç zaman bağışlanmayacağına yəqinliyin daha da artırsa... İnsanların üzünə baxmaqdan utanırsansa... O halda "YA ĞƏFUR" deyə pıçılda!*

*Əgər bütün qapılar üzünə qapanmışsa, qulpundan yapışdığın hər iş yarımçıq qalırsa... Əgər bağlı qapıları açmağa gücün, yarımçıq işləri bitirməyə iradən çatmırsa... "YA FƏTTAH" deyə haray sal!*

*Əgər hər kəs səndən uzaq qaçırsa, təsəlli üçün üz tutduğun hər adam öz ürəyinin pəncərəsini sənin üzünə qapayırsa... Özünü dünyada hamıdan tənha, hər kəsdən uzaq hiss edirsənsə... Əzizlərinin laqeydliyi, yaxınlarının uzaqlığı səni üzürsə... "YA QƏRİB" söylə, Onun sənə boynundakı şah damarından da yaxın olduğunu duymağa çalış!*

*Əgər yolların ayrıcında durub işıq axtarırsansa... Gözlərin yolun sonunu bəlirtən işarəni arayırsa... Hər yan vahiməli zülmətə bürünübsə... Bələdçin, yolgöstərənin yoxdursa... Hara getməli olduğunu bilmirsənsə və bir kəsdən öyrənməyə ümidin də qalmayıbsa... Onun çırağını axtar, Onu səslə, "YA HADİ" söylə!*

*Şübhələrin pəncəsində əzilirsənsə... Doğrunu yalandan, yaxşını pisdən, düzü əyridən ayırmağın meyarını gəzirsənsə... Eyni şeyə biri haqq, o biri batil deyirsə... Güclə qazandığın yəqinliyi bircə şübhə ilə darmadağın edirlərsə... İllər uzunu, bəlkə bir ömür boyu inandığın dəyərlərin puç olduğunu sübut etməyə çalışırlarsa... Bu qarışıqlıqda kimin doğru, kimin səhv dediyini kəsdirmirsənsə... Üzülmə, "YA MUBİN" deyə, Onu səslə!*

*Səhərdən axşama kimi bir qarın çörək üçün əlləşib-vuruşursansa, amma yenə qazancın bəs etmirsə... Ayın sonunda aldığın məvacib vacib ehtiyaclarının yarısına da çatmırsa... Təmirə ehtiyacı olan evinin divarlarına, övladının cırılıb-dağılmış ayaqqabılarına, həyat yoldaşının əynindəki rəngi getmiş gödəkcəsinə baxıb xəyallara dalırsansa... Harada ucuz taparam deyə, eyni mal üçün dükanları gəzirsənsə... "YA RƏZZAQ" deyə əllərini Onun dərgahına aç!*

*Əziz adamını uzaq səfərə, yeganə oğlunu hərbi xidmətə yola salmısansa... Onun nigarançılığı ilə ürəyin çırpınırsa... Hər dəfə qapı döyüləndə, telefon zəng çalanda bəd xəbər olmasın deyə, o biri dünyanı görüb-gəlirsənsə... Televizor ekranından təbii fəlakətlər, qətllər, xəstəliklər, bədbəxt hadisələr, yol qəzaları haqqında görüntüləri seyr edəndə üzülürsənsə... Qorxma, Onu səslə, "YA HAFİZ" de!*

*Əgər qorxduğun birisi varsa... Təzyiqlərdən, təhdidlərdən, təqiblərdən cana doymusansa... Zəifsənsə, səni əzirlərsə... Haqlı olduğun halda səni təkləyib haqsız çıxarırlarsa... Hüququnu tələb edəndə ağzından vururlarsa... Gen dünyanı başına dar edirlərsə... Şər, böhtan, zülm, həqarət halqasında əsir olmusansa... Sənə zülm verənləri yerlə-yeksan etməyə gücü çatan qüvvəni çağır – "YA QAHİR" deyə.*

*Sevgiyə tamarzısansa... Səmimiyyət gözləyəndə xəyanətlə üzləşirsənsə... Sevgi ilə qucaq açıb gəldiyin zaman nifrət divarı qarşını kəsirsə... Nəvaziş, təsəlli, doğmalıq, təbəssüm axtarışında gəzirsənsə... Sənin göz pəncərəndən boylanıb ürəyinə ılıqlıq gətirəcək baxışlara, saçını tumarlayacaq əllərə, qulağını oxşayacaq xoş sözlərə hava kimi, su kimi ehtiyacın varsa... Hüdudsuz məhəbbətin ünvanını ara, "YA RƏUF" deyə Ondan sevgi um.*

*Öz evində özünü özgə, vətəndə qərib, doğmaların əhatəsində yad kimi hiss edirsənsə... Dünyaya zindan, ölümə qurtuluş kimi baxırsansa... Əsl məskənini axirətdə axtarır, amma günahlarını yada salıb pərişan olursansa... Nə dünyada, nə də axirətdə özünə yer tapa bilmirsənsə... Yaşamağa iradən yoxdursa, ölüb sorğu-sual qarşısında durmağa üzün gəlmirsə... "YA RƏHMANU YA RƏHİM" zikri ilə aram tapmağa çalış.*

***Əgər bunların hamısını birlikdə istəyirsənsə,***
***bircə dəfə, amma bütün varlığınla "YA ALLAH" de...***

# AŞURA KƏRBƏLA HƏQİQƏTLƏRİ



*Əziz və hörmətli oxucu, mə`lum olduğu kimi müsəlman azəri xalqı da bir çox başqa xalqlar kimi 70 il allahsızlığı təbliğ və tərvic edən bir quruluşun tərkibində olmuşdur. Bu illər ərzində ən çox zərər çəkən, e`tiqadına ən çox zərbə dəyənlərdən biri də, bizim xalq olmuşdur. Dinin adı demək olar ki, yasaq edilmişdi. Əks istiqamətdə isə çox böyük səylə dinsizlik təbliğ olunurdu. Bütün bunların nəticəsində rabitəsini öz keçmişi, kökü və dini ilə qırmış yeni bir nəslin meydana gəlməsi təbii bir hal idi. Həmin nəsl bir ömür bu əqidəylə yaşamışdı. Onlardan vücuda gələn övladlar isə, əsl həqiqətdən tamamilə xəbərsiz bir halda böyüyürdü. Allaha şükür olsun ki, artıq o dinsiz quruluş asanlıqla tarixin karvanı ilə ötüb keçdi. İndi müsəlman övladları artıq öz dinlərilə maraqlanır, öyrənir və ona əməl edirlər.*

Bu gün dini yaddaşımızın səhifələrini vərəqləyəndə İmam Hüseynin (ə) adının böyük hərflərlə, nur içində yazıldığının şahidi oluruq. Xalqımız “Məhərrəmlik” deyib bu ayda qaraya bürünsə də, çoxlarının azadlıq simvolu, şəhidlər şahı İmam Hüseyn (ə) barəsində mə`lumatı kifayət həddə deyildir. Kimisi İmam Hüseynin (ə) adı çəkiləndə elə bilir ki, həmin vaxt hansısa imamlar (ə) öldürülüblər. Kimisi Yezid adlı bir şəxsin ona su verməməsini, kimisi ərəblərin davasında şəhid olduğunu, kimisi də yezidlərin onu öldürdüyünü hesab edir. Xülasə desək, dini mə`lumatların azlığı və ya yoxluğu nəticəsində o əzəmətli İmam barəsində təsəvvür çox məhduddur. Bəs, həqiqət necədir? İmamı kim şəhid edib? Yalnız özünümü şəhid ediblər? Nə üçün qaçmayıb? Müsəlmanlar Peyğəmbərin (s) nəvəsinin öldürülməsinə necə razı oldular? Məgər onu öldürənlər müsəlman deyildi? Bəs müsəlman müsəlmanı öldürməyə necə cür`ət edə bilər?

Bu kimi suallarla tərtib olunmuş İmam Hüseyn (ə) barəsində olan bu məqaləni siz əzizlərin diqqətinə çatdırırıq. Ümid edirik ki, bu yazımızda qısa da olsa İmam Hüseyn (ə) ilə bağlı sizlərə diqqətəlayiq mə`lumatlar çatdıracağıq.

## İmam Hüseyn kimdir, nə vaxt, harada və kimin ailəsində dünyaya gəlmişdir?

İmam Hüseyn (ə) islam tarixi ilə dördüncü ilin, şəban ayının üçündə, Mədinə şəhərində imam Əli (ə) və Peyğəmbər (s) qızı həzrət Fatimənin (ə) ailəsində dünyaya göz açmışdır. O Həzrət müsəlmanların üçüncü imamıdır. Babası İslam peyğəmbəri həzrət Məhəmməddir (s).

Peyğəmbərin (s) sağlığında İmam Hüseyn (ə) dünyaya gəlmişdimi və Peyğəmbərin ona qarşı münasibəti necə idi?

Mə`lum olduğu kimi Peyğəmbər (s) islam tarixinin onuncu ilində dünyadan getmişdir. İmam Hüseyn (ə) isə dördüncü ildə dünyaya gəlmişdir. Mə`lum olur ki, o Həzrətin (ə) ömrünün altı ili babasının həyatda olduğu dövrə təsadüf edir. Peyğəmbər (s) onu bir nəvə kimi istəməkdən əlavə, ona gələcəyin bir imamı kimi baxırdı və adını da özü qoymuşdu. Peyğəmbərimiz (s) öz səhabələri içində dəfələrlə ona xüsusi hörmətini, sevgisini bildirmiş, səbəbini soruşanlara isə onu Allahın çox sevdiyinə görə sevdiyini buyurmuşdu. Aşağıdakı hədislər İslam Peyğəmbərinin (s) dilindən çıxmışdır: “Hüseyn hidayət çırağı, nicat gəmisidir”, “Hüseyn məndən və mən də Hüseyndənəm” və s.

## İmam Hüseynin şəxsiyyəti

Əgər biz o Həzrətin atasının Həzrət Əli (ə), anasının behişt meyvəsi ilə dünyaya gələn Peyğəmbər qızı Fatimə (s) və babasının insanlar içində Allahın ən şərəfli, sevimli, seçilmiş məxluqu həzrət Məhəmməd (s) olduğunu bir anlıq təsəvvür etsək, bu kifayətdir. Ancaq, əlavə edək ki, o Həzrət ibadət, itaət, səbir, şücaət, səxavət və s. kimi xüsusiyyətləri ilə atası və babasına çox oxşayırdı. Belə ki, elə uşaqlıq dövrlərindən əzəməti ilə diqqəti cəlb edirdi. Ondan böyük qardaşı, İmam Həsən (ə) ona xü-

susi hörmətlə yanaşırdı. Sanki İmam Hüseyn (ə) ondan böyük idi. Bunun səbəbini soruşduqda isə buyurardı: "Mən onda Əmirəl-mö`mininin heybətini, əzəmətini müşahidə edirəm".

Oğlu İmam Səccaddan (ə) nə üçün İmam Hüseynin (ə) övladlarının az olduğunu soruşduqda belə cavab vermişdi: "Onun necə mənim kimi çoxlu övladı ola bilərdi? Axı o gecə-gündüz ərzində min rük`ət namaz qılardı..."

O həzrət həm cisim, həm də rəftarlarında Peyğəmbərə (s) lap çox oxşayırdı. Camaat onu gecələr mübarək bədənindən ətrafa saçılan nurla tanıyardılar.

## İslam Peyğəmbəri (s) onun şəhid olmağı barəsində müsəlmanlara xəbər vermişdimi?

Peyğəmbərimiz (s) dəfələrlə onun zalım bir qövm tərəfindən şəhid ediləcəyi barəsində müsəlmanlara xəbər vermiş, hətta şəhid ediləcəyi yerin adının Kərbəla olduğunu və orada baş verənləri əvvəlcədən bildirmişdi. Peyğəmbərimiz (s) onun şəhadətini yad edərkən dəfələrlə ağlamış və onun qatillərini lə`nətləmişdi.

İmam Həsən (ə) İmam Hüseyndən (ə) yaşca böyük idi və imamlıq məqamı onun öhdəsində idi. Ancaq o hökumətə, onun başçısı Müaviyəyə qarşı qiyam etmədi. Ömrünün axırınacan Müaviyə ilə sülh şəraitində yaşadı. Bəs nə üçün İmam Hüseyn (ə) qardaşından sonra hökumətə qarşı çıxdı ?

Əvvəla, İmam Hüseyn (ə), qardaşı Müaviyənin əli ilə şəhid edildikdən sonra imamət məqamında olsa da on il müddətində qiyam etmədi. İkincisi isə, hansı hökumətdən söhbət gedir?! Məgər Müaviyə müsəlmanların rəhbəri idimi?! O, üzdə islamdan dəm vursa da əslində çox məkrli bir kafir idi. Müaviyə şərab içir, eyş-işrətlə məşğul olur, məzlum insanları qətlə yetirir, camaatın var-yoxunu talayaraq xəzinəni doldururdu. Özünü Peyğəmbərə (ə) qohum kimi qələmə verərək avam müsəlmanların gözündən pərdə asırdı. O vaxt onun başçılıq etdiyi hökumətin mərkəzi Şam idi. Şam isə həmin vaxt dini təbliğatdan kənarda qalmışdı. Müaviyə özü də ikinci xəlifə tərəfindən ora vali tə`yin edilmişdi. O vaxtdan başlayaraq müxtəlif hiylələrlə özünü orada bacardıqca möhkəmlətmişdi. İllər keçdikcə həyata göz açan yeni nəsil onu və onun rəftarlarını görmüş, İslamı Müaviyənin simasında tanımışdılar. Siz təsəvvür edin, Şam camaatı elə güman edirdi ki, Peyğəmbərin (s) Müaviyədən başqa qohumu yoxdur. Müaviyə camaatı manqurtlaşdırma metodundan istifadə edərək camaat arasında "cəbr" əqidəsini yayırdı. Yə`ni Müaviyə nə iş görürdüsə: Bu Allahın işidir – deyilməliydi. Hətta bu əqidəyə görə o, özü də öz rəftarlarının əksini edə bilməzdi. Çünki Allah-taala əvvəldən nə yazıbsa o da olmalıydı. Bu cəbri e`tiqad üsulu Bəni-Üməyyə hakimiyyətinin ideoloji dayaqlarından biri idi. Bu metod xalqın qiyamının qarşısını alan olduqca məkrli bir silah idi. Onlar deyirdilər:

"Hakimiyyətdəkilərin əməlləri nə qədər pis və haqdan uzaq olsa da Allahın yazdığıdır və bunu heç cür dəyişmək mümkün deyildir".

Avam camaat isə bütün bu deyilənlərə inanır, hakimiyyətin etdiyi zülmlər müqabilində susurdular. Müaviyə 42 il (5 il ikinci xəlifənin, 12 il üçüncü xəlifənin, 4 il İmam Əlinin (ə), 6-ay İmam Həsənin dövründə) Şamın valisi olmuş, 20 il isə islam hökumətinə başçılıq etmişdir. Siz təsəvvür edin, belə bir xəbis insanın İslam hökumətinə başçılıq etməsi dində nə böyük faciə idi! Ancaq, dediyimiz kimi onun zahirdə İslama riayət etməsi onun əsl şeytan sifətini həmişə gizlədirdi. Elə İmam Həsənin (ə) ona qarşı qiyam etməməsinin başlıca səbəblərindən biri budur. Camaat Müaviyənin şirin və`dlərinə, pul kisələrinə aldanaraq İmamın ətrafından dağılışdılar. Camaat rahatlığa uymaqla Allah yolunda cihada getməkdən imtina edirdi. İmam Həsən (ə) onları nə qədər Müaviyə əleyhinə döyüşə səsləsə də, bir nəticə vermirdi. İmamın qoşun başçıları Müaviyə tərəfindən



göndərilən qızıla aldanaraq bir-bir ona tərəf keçirdilər. İmam Həsən (ə) tək qaldığını gördükdə məcbur qalıb Müaviyənin sülh təklifli məktubuna xüsusi şərtlər qoymaqla müsbət cavab verdi. İmamın bundan başqa çarəsi yox idi. Bəs necə demək olar ki, İmam, Müaviyə kimi bir alçaqla sülh şəraitində yaşamışdır?! İmam zəhərlənənə kimi müqaviləyə əməl edərək hökumətə qarşı bir əks-tə`sir göstərmədi. Ancaq Müaviyə dəfələrlə müqaviləni pozmuşdu. İmam Hüseynin (ə) on il müddətində hökumətə qarşı çıxmamasının bir səbəbi də qardaşı ilə Müaviyə arasında imzalanmış bu müqavilə olmuşdur (Şərtlərə əsasən Müaviyə öləndən sonra hökuməti İmam Həsənə həvalə etməliydi). Digər tərəfdən isə Müaviyə üzdə İslama riayət edir, namaz qılır, aşkar şərab içmirdi. Ancaq elə ki, Müaviyə cəhənnəmə vasil oldu, daha bir səbəb qalmamışdı ki, İmam Hüseyn (ə) İslam uğrunda mübarizəyə qalxmasın. Həzrət görürdü ki, İslam artıq məhvolma ərəfəsindədir.

Həzrət müxtəlif məqamlarda öz qiyamının mahiyyəti haqda buyurmuşdur:

“Əgər onlar məndən bey`ət tələb etməsələr belə, yenə də aram və sakit oturmayacağam. Çünki mənim xilafətə qarşı müxalifətim yalnız Yezidlə bey`ətə görə deyil ki, əgər onlar bey`ət işində sakit qalsalar, mən də sakit duram. Yezid və onun sülaləsinin varlığı zülm, sitəm, əxlaqsızlığın varlığı deməkdir. Bu mənim vəzifəmdir ki, fitnə-fəsadı aradan qaldıram, yaxşılığa əmr edib, pislikdən çəkindirəm, babam Peyğəmbərin qanunları və atam Əlinin getdiyi yolu dirçəldəm, haqq-ədalətin bərpası üçün ayağa qalxam və Bəni-Üməyyənin azğınlıqlarına son qoyam. Qoy bütün dünya bilsin ki, Hüseyn vəzifə, var-dövlət və məqam, iğtişaş və fitnə-fəsad ardınca deyil”.

“Yezidin müsəlmanlara hakimiyyəti ilə İslamın “fatihə”sini oxumaq lazımdır!”

“Mən babam Peyğəmbərin ümmətini islah etmək üçün qiyama qalxdım!”

“Mənim kimi bir şəxs, əsla Yezid kimi şərabxora bey`ət etməz”.

“Mənim inqilab və mübarizəmə səbəb zülmün, azğınlığın baş alıb getməsi və İslam qanunlarının dəyişilməsidir. Bu inqilabi hərəkatdan məqsəd yaxşılığa əmr etmək, pislikdən çəkindirmək, ictimai əxlaqsızlığı aradan qaldırmaq və İslamın unudulmuş, əvəz olunmuş hökmlərini bərpa etməkdən başqa bir şey deyildir”.

“Camaat, ayılın! Bunlar (Bəni-Üməyyə) Allaha itaəti unudub şeytanın itaətini özlərinə vacib bilmiş, fəsad törədərək ilahi qanunları pozmuş, Peyğəmbər (s) ailəsinə məxsus olan əmlakı mənimsəmiş və Allahın halal-haramlarını, əmr-qadağalarını təhrif etmişlər. Mən müsəlman ümmətinə rəhbərliyə babamın dinini dəyişdirən bu azğınlardan daha layiqəm”.

İmamın qiyam etməsinə iki şey müqəddimə oldu. Birincisi Müaviyənin cəhənnəmə vasil olması idi. Artıq bir səbəb yox idi ki, İmamı zahirdə susmağa vadar etsin. Müaviyənin getməsilə müqavilə də qüvvədən düşdü. İkincisi isə şərabxor, itbaz, meymunbaz Yezid kimi düşkün bir yaramazın hakimiyyətə gəlməsi idi. Axı belə bir şəraitdə İmam Hüseyn necə susa bilərdi?! Allahın yer üzündəki canişini necə razı ola bilərdi ki, gözü önündə uğrunda illərlə zəhmət çəkilmiş, qanlar axıdılmış bir din xəbis bir kəsin əlilə aradan getsin. Yezid öz şeirlərində deyirdi: “Bəni-haşim (Peyğəmbərin nəsli-m.) xilafətlə oynadı, halbuki nə vəhy nazil olmuş, nə də göydən bir xəbər nazil olmuşdur”. Yaxud deyirdi: “Əgər şərab içmək Məhəmmədin dinində haramdırsa, sən onu İsanın dinində iç!” İndi siz təsəvvür edin, Peyğəmbərin (s) canişini deyil, imam deyil, sadəcə vicdanlı bir mömin, müsəlman olsaydı, belə bir vəziyyətdə nə edərdi?

Ona görə də İmam İslamı qorumaq, cəddinin dinini xürafatlardan təmizləmək və əmr be mə`ruf və nəhy əz münkər etmək üçün qiyama qalxdı...

**Dilman Məhəmmədmehdi Şahmərdanlı**

# AŞURA FRANSALI JOZEFİN NƏZƏRİNDƏ

Doktor Jozef məhşur fransalı tarixçi “İslam və islamçılar” kitabında belə yazır: İslamın banisi olan Məhəmməd ibni Əbdullahın (s) vəfatından sonra onun canişinləri barəsində məfhumi və əqidəvi ixtilaflar ortaya çıxdı. Bir dəstə kürəkəni olan Əli ibni Əbi Talibin (ə) və o biri dəstə isə qaynatası olan Əbu Bəkrin xəlifəliyini qəbul edirdi. Birinci dəstə əhli şiə və iknici dəstə isə əhli sünnü adlanırdı. Həzrət Əli (ə) xəlifə seçilən zaman Məhəmmədin (s) həyat yoldaşı və Əbu Bəkrin qızı olan Aişə onun əleyhinə qiyam etdi və Məhəmmədin (s) qaynı olan Müaviyə Şamda padşahlıq bayrağı ucaltdı. Bu zaman üç dəstə yarandı, şiddətli müharibələr başlandı və bir çoxları öldürülüb və yaralandılar. Şam hakimiyyəti (Müaviyə) Əlinin (ə) tərəfdarlarının qarət və qətlinə başlayanda Əlini (ə) məscid və minbərlərdə pisliklə yad etməyə və onu təhqir etməyə əmr etdi. İki dəstə arasında olan ədavət və düşmənçilik daha da artdı və əhlibeyt tərəfdarları hakimiyyətdə olan Bəni-üməyyəyə tabeçiliyindən boyun qaçıraraq onlara öz nifrətlərini elan edirdilər. Amma iqtidar və hakimiyyət Bəni üməyyənin əlində idi. Xilafətdən sonra müsəlmanlar zalım hakimiyyətin qorxusundan öz əqidələrini aşkar etmirdilər. Bu vəziyyət Aşura gününə qədər davam etdi. O gün ki, Şam hakiminin (Yezid ibni Müaviyə) əmri ilə imam Hüseyn (ə) və onun dostlarını Kufənin ətrafında qətlə yetirdilər və bu hadisə geniş əhəmiyyətə malik oldu.

İş bu yerə çatdı ki, müsəlmanlar Məhəmmədin (s) nəvəsinin əzadarlığını öz məzhəblərinin bir hissəsi etdilər. O gündən bu vaxta qədər müsəlmanlardan bir hissəsi həzrət Əli (ə) və Fatimənin övladlarından (s) olan əməl və sözlərini Allah və Rəsulun (s) əməl və sözləri kimi və Quranın ardıcılları kimi qəbul edən on iki imamlara tabe olaraq imam Hüseynin (ə) əzadarlığında iştirak edirlər və get-gedə bu əzadarlıq cəfəri məzhəbinin əsaslarından birinə çevrildi. Cəfəri məzhəbinin qısa müddət ərzində sürətli tərəqqisini nəzərə alsaq, deyə bilərik ki, gələn iki əsrdən sonra onların sayı başqa məzhəblərin sayından çox olacaq və bu işin əsl səbəbi imam Hüseynin (ə) əzadarlığıdır. Bu gün dünyanın elə bir nöqtəsi yoxdur ki, orada iki-üç nəfər cəfəri məzhəbinə mənsub olan olsun amma əzadarlıq keçirməsinlər.

“Marsil limanında bir cəfəri məzhəbli bir ərəb gördüm və deyəsən Bəhreyn vətəndaşlığını qəbul etmişdir. Mehmanxanada mənim otağımın cənubunda otağı var idi. Aşura günü İmam Hüseynin (ə) əhvalatlarını təkcə oxuyaraq ağlayırdı. Daha sonra düyü və şəkərdən hazırladığı aşı fəqirlər arasında bölüşdürdü”.

Bu müsəlmanlar inanırlar ki, gərək Aşura və Tasua günlərində fəqirlərə yemək versinlər, elə buna görə də hər il öz mallarından gücləri çatan qədər fəqirlərə kömək edirlər.

Gərək etiraf edək ki, həqiqətən belə müsəlmanlar din və imam Hüseynin (ə) əzadarlığı yolunda mal və canlarını verməkdən çəkinmirlər. Bu gün dünyanın bütün nöqtələrində elmi agahlığa malik olan ən ləyaqətlilər müsəlmanlar, xüsusilə də bütün İslam məzhəblərindən üstün olan Cəfəri məzhəbidir.

# AŞURA HADİSƏSİNİN QEYD OLUNMASI

***Aşura hadisəsini yad etmək, heç də yalnız sinə vurub ağlamaq, şəhəri, məscidləri qara örtüyə bürümək, əzadarlıq etmək və bütün işləri buraxıb, səhərdən axşama qədər mərasimlərdə iştirak etməkdən ibarət deyil. Bunun nəticəsi bir çox işlərə, xüsusilə də iqtisadi sahəyə zərər vurur. Halbuki, bu mərasimləri digər şəkildə də təşkil etmək olar.***

Bu mərasimlərin kütləvi şəkildə keçirildiyi ölkələrdə xalqın əksəriyyəti müvəqqəti olsa da, iqtisadi və maddi məsələlərlə az maraqlanır və bu tədbirlərə daha artıq diqqət yetirirlər. Belə bir halda insanlar bu hadisəni iqtisadi, maddi zərər və mənafelər baxımından araşdırıb qiymətləndirirlər. Mümkündür ki, hələ kifayət qədər dini anlayışı və məlumatı olmayan bir yeniyetmə belə fikirləşsin: Bu kimi mərasimlər iqtisadiyyata və maddiyyata zərər vurur, istehsal azalır, vaxt itirilir. Gecələri sübhə qədər əzadarlıqla məşğul olduqda isə, səhəri gün iş görməyə qüvvə qalmır. Ardıcıl olaraq, iki ay bu hadisənin anılması cəmiyyətin iş rejimində fasilələr yaradır, ümumi göstəricilərin faizi aşağı enir. Halbuki, Məhərrəmliyin xatirəsini başqa yollarla da yad etmək olar. Məsələn, bu məqsədlə elmi yığıncaqlar, dəyirmi masalar, yubiley və seminarlar da təşkil etmək olar. Əzadarlıq etmək təkcə ağlayıb-sızlamaq, baş-gözünə döyməkdən ibarətdirmi? Bir toplantı kifayət etmirsə, bir neçə yığıncaq təşkil olunsun, konfranslar keçirilsin. Məgər, hər hansı bir hadisənin yad edilməsi üçün hökmən camaat başına-sinəsinə vurmalı, özünə əziyyət etməlidir?

Aşura hadisəsi və imam Hüseynin (ə) xatirəsinin yad edilməsinin faydalı olduğunu və cəmiyyətimizə müsbət təsir qoyduğunu qəbul etsək, qarşıya çıxan ikinci sual budur ki, nə üçün mərasimlər məhz bu şəkildə keçirilməlidir?

***Bu sualın cavabı*** birinci sualdan daha çətindir. Cavab budur ki, əlbəttə, şəhidlər sərvəri imam Hüseynin (ə) şəxsiyyəti barədə belə konfransların keçirilməsi, elmi seminar və mədəni yığıncaqların təşkili, tədqiqatların aparılması olduqca faydalı, həm də zəruridir. Bu kimi yığıncaqlar indi də keçirilir; o həzrətin adı ilə bağlı müxtəlif səviyyəli elmi söhbətlər olunur, tədqiqatlar aparılır və xalq da bunların nəticələrindən istifadə edir. Bu kimi fəaliyyətlərin davam etdirilməsi lazımlı bir işdir. Amma Aşura hadisəsindən yetərincə faydalanmağımız üçün bunlar kifayət edirmi? Bəlkə başqa işlər də görülməlidir?

***Bu suala cavab*** vermək üçün ilk növbədə insanlara psixoloji nöqteyi-nəzərdən diqqət yetirməli, onların şüurlu rəftarlarına təsir edən amillərin yalnız dərketmə, yoxsa ictimai davranışlardan ibarət olmasını araşdırmalıyıq.

Bir qədər diqqət etsək görərik ki, bizim rəftar və davranışlarımızda daha çox iki növ təsiredici amil mühüm rol oynayır. Birincisi, dərketmə amili olub, insana müəyyən mövzunun başa düşülüb qəbul edilməsində kömək edir. Təbiidir ki, nəzərdə tutulan mətləbin, elmin hansı sahəsinə aid olmasından asılı olaraq, ona uyğun əqli, təcrübi dəlillər və ya digər yollardan istifadə edəcəyik. Şübhəsiz, dərketmənin bizim davranışlarımızda böyük təsiri vardır. Amma etiraf etmək lazımdır ki, bu üsul yeganə təsirgöstərici amil deyildir. Rəftar və davranışımızda dərketmə amilindən daha çox təsirli olan digər amillər də mövcuddur. Belə amilləri ümumilikdə, təhrikedici hisslər, başqa ifadə ilə desək, duyğu hissləri, meyillilik, qəlbi yönəlmə və ya instinkt adlandırırlar; bunlar daxili, psixoloji amillər olub, davranışlarımıza əsaslı təsir göstərən məsələlərdəndir. Fərdi və ya ictimai olmasından asılı olmayaraq, gündəlik rəftar və davranışlarımıza diqqət yetirsək görərik ki, təsirinə daha çox məruz qaldığımız amillər əsas etibarı ilə təhrikedici amillərdir.

Əvvəla, hər hansı bir işi görmək üçün insanın daxilində həmin işə qarşı maraq, şövq və həvəs olmalıdır. İkincisi, həmin işin yerinə yetirilməsi üçün qarşıya məqsəd qoyulmalıdır. “Bu işin faydası nədir?”, “Necə görülməlidir?” və bu qəbildən olan digər səbəblər dərketmə amilləridir. Bu amillər təcrübə yolu ilə və ya məntiqi dəlillərlə diqqətlə araşdırılıb öyrənilməlidir. Amma hər hansı bir işin icra edilməsi üçün təkcə məqsədin və təsiredici amillərin bəlli olması kifayət etmir.

İmamın da öz hədəfi yolunda göstərdiyi fədakarlıqlar haqda yalnız müəyyən anlayışa malik olmaq, bizi onun işinə oxşar bir iş görməyə, yolunu getməyə sövq etdirməyəcək. Təkcə bilmək və ya məlumat əldə etməklə, insanda belə bir meyl yaranmır. İnsandan yüksək əzm və iradə tələb edən bu kimi işləri görmək üçün hisslərimiz təhrik olunmalıdır. Bu işlərin əməli olaraq həyata keçməsi həmin iki əsas amildən asılıdır. Elmi yığıncaq və çıxışlar birinci növdən olan amilləri təmin edə bilər; yəni lazım olan bilik və məlumatı çatdırmaqda bizə yardımçı olar. Bununla yanaşı, daxili hiss və meyilləri gücləndirəcək digər amillər də lazımdır. Məlum məsələdir ki, insanın hər hansı bir hadisəni yaxından müşahidə etməsilə, o hadisə haqqında eşidib və ya oxuması arasında çox fərq vardır. Bunu real həyatda da təcrübə etmək olar. Müşahidə etmədiyiniz hər hansı bir hadisə haqqında eşitdiyiniz məlumatın sizdə yaratdığı təsir ilə, həmin hadisəni öz gözlərinizlə görəcəyiniz zaman yaradacağı təsir arasında fərq olacaqdır. Təbiidir ki, gözlə müşahidə edilən hadisə insanda daha çox təəssürat yaradır.

Buna misal olaraq, Qurani-Kərimdən hamınızın eşitdiyi bir əhvalatı qeyd etmək istərdim:

"Bildiyiniz kimi, həzrət Musa əleyhissəlam Allah tərəfindən, ibadət etmək üçün Tur dağına dəvət edilir. Əhaliyə də əvvəlcədən xəbər verilir ki, Musa əleyhissəlam orada bir ay qalacaq. Allah-taala sonradan bu müddəti artırıb qırx günə çatdırır. Xalq isə müddətin uzadılmasından xəbərsiz idi. Bu, Bəni-İsrail qövmünə, onların həqiqətdə imanlarında nə qədər sabit olduqlarını göstərmək üçün nəzərdə tutulmuş bir imtahan idi. Müddət başa çatan kimi Bəni-İsrail qövmü həzrət Musanın (ə) canişini və qardaşı olan Harunun yanına gedərək, onun nə üçün gəlib çıxmadığını soruşur. Harun isə cavabında belə deyir: "Gözləyirik, tezliklə gələr". Səhər olur, Musa (ə) gəlib çıxmır. Yenidən soruşurlar: "Musa (ə) niyə gəlmədi? Gecikməyindən belə məlum olur ki, bizi tək qoyub, özü çıxıb gedibdir". Samiri isə fürsətdən istifadə edərək bir buzov heykəli düzəldir və camaatı da ona ibadət etməyə dəvət edir: "Bu həm sizin, həm də Musanın Allahıdır. Bu həmin Allahdır ki, Musa Tur dağında onunla münacat edirdi. Mənim düzəltdiyim bu buzov elə Musanı peyğəmbərliyə seçən Allahın özüdür". Camaatın əksəriyyəti buzovun qarşısında səcdəyə düşüb, ona sitayiş etməyə başlayır. Allah-taala Musaya (ə) vəhy göndərir ki, sənin qövmün arasında belə bir iş olubdur. Gecikdiyin bu on gün ərzində camaat inəkpərəst olublar. Musa(ə)  bu sözləri eşitsə də, narahatlığını biruzə vermir. On gün başa çatdıqdan sonra Allahdan nazil olmuş lövhəni də götürüb camaatın yanına qayıdır ki, nazil olmuş ilahi hökm haqqında xəbər versin və onları ilahi şəriətə əməl etməyə çağırsın. Qayıdan zaman camaatın buzova ibadət etdiyini görür. Bu mənzərə onu o qədər mütəəssir edir ki, əsəbləşərək gətirdiyi lövhəni bir kənara qoyur. Qardaşı Harunun yanına gedir; onun yaxasından yapışır, özünə tərəf çəkir və camaatın yolundan azmasına niyə izn verdiyini soruşur".

Həmin əhvalatı burada təfsilatı ilə nəql etmək istəmirəm. Sadəcə olaraq, hər hansı bir şey haqda məlumat və anlayışa malik olmaqla, onu müşahidə etməyin fərqini göstərmək istəyirdim. Allah-taala həzrət Musaya (ə) qövmünün buzova pərəstiş etməsi məsələsini xəbər vermişdi. Həzrət Musanın (ə) da bu məsələdə heç bir şəkk-şübhəsi yox idi. Çünki, xəbər verən adi bir kimsə deyil, Allahın özü idi. Xəbəri eşidəndə o qədər də narahat olub əsəbləşmədi. Lakin camaatın buzova sitayiş etdiyini öz gözləri ilə müşahidə etdikdə, dərhal halı dəyişir və qəzəblənir. Qardaşının yanına gedərək, ona öz etirazını bildirir.

Allah-taala insanı elə yaradıb ki, bir hadisəni müşahidə etməyin doğurduğu təsir və təəssürat, deyilənlər, eşidilənlər və məlumatlarla yaranan təsirlə kəskin şəkildə fərqlənir. Biz hər hansı bir hadisəni səhnələşdirsək, istər xalq folkloru formasında olsun, istərsə də müasir film və ya tamaşalar şəklində, bu səhnələr nəzərdə tutulan əhvalatı təcəssüm etdirə bilirsə, bunların insanda qoyduğu təsir digər üsullardan qat-qat üstündür. Aşura günü imam Hüseyn  əleyhissəlamın necə  şəhid olduğunu hamımız yaxşı bilirik. Amma bunu bilməklə qüssələnib ağlamırıq. Lakin mərasimdə iştirak etdikdə, mərsiyəxanların xüsusi ahəng və hərəkətlə nümayiş etdirdiyi Kərbəla əhvalatını eşidərkən, ixtiyarsız olaraq kövrəlirik, gözlərimiz yaşarır. Bu üsulun insanın hisslərini təhrik etməkdə böyük təsiri vardır. Bu səhnələrin nümayişi imam Hüseyn əleyhissəlamın qiyamının nə üçün və necə baş verməsi, necə şəhid olmasını daha dolğun şəkildə öyrənib-bilməyimiz üçün əlverişlidir. Bunları biz nə qədər yaxşı təcəssüm etdirə bilsək, bir o qədər Aşura mədəniyyətindən faydalanmış olacağıq.

İnsanlar Məhərrəmliyin ilk günü evlərindən bayıra çıxarkən, şəhərdə ayrı bir görkəm və əhval-ruhiyyə görürlər. Bu da onlarda xüsusi təsir oyadır, ürəklərini riqqətə gətirir. Aşura gününün yaratdığı əhval-ruhiyyə və təəssüratı digər aylarda müşahidə etmirik.

Tarixdə bu hadisənin təsiri ilə zalım rejimlərə qarşı neçə-neçə qiyamlar, çıxışlar olub. Elə buna görədir ki, İmam Xomeyni (r) dəfələrlə buyurmuşdur: **"Bizim nəyimiz varsa, Məhərrəm və Səfər aylarının bərəkətindəndir".**

Nəyə görə əzadarlıqların məhz bu şəkildə keçirilməsinə israr edilir?

Çünki, artıq on üç əsrdir ki, bu səhnələrin, xalqların milli-dini hisslərinin təhrik edilməsində böyük rolu olduğu təcrübə olunmuşdur. Baş vermiş müharibələrdə qazanılan bir çox qələbələr, məhz xalqın Hüseyn adı və Hüseyn hərəkatından bəhrələnib, böyük şövq və şücaətlə vuruşması nəticəsində olmuşdur. Bunun təsiri az deyildir; cəmiyyətdə belə bir ruhiyyə yaradan ikinci amil vardırmı? İnsanları dininin, millətinin tapdalanmış haqları yolunda mübarizəyə səsləyən və şəhadətə hazırlayan ikinci bir məktəb vardırmı?

Beləliklə, məlum oldu ki, əzadarlıq mərasimləri Aşura hadisəsi haqda müəyyən məlumat və anlayış yaratmaqdan əlavə, bizdə rəğbət, müsbət əhval-ruhiyyə və s. ülvi hisslərin oyanmasında da mühüm rol ifa edir. Aşura ilə əlaqədar nəzərdə tutulan mərasimlər də belə amillərdəndir.

## Aşura hadisəsinə görə nə üçün əzadarlıq etməliyik?

Cəmiyyətin İmam Hüseyn ruhunda tərbiyə olunub, bu hadisənin müsbət tərəflərini görmələri, bu növ işlərə təşviq olunmaları üçün, onların müvafiq hisslərinə təsir edən amillərin araşdırılması zəruri məsələlərdəndir. Amma burada diqqət edilməsi lazım olan digər bir mövzu da var. Görəsən bu hissləri təhrik etmək üçün əzadarlıq edib ağlamaq yeganə yoldurmu? Hətta bayram əhval-ruhiyyəli mərasimlərdə də insanların bu kimi duyğularına təsir edilməsi mümkündür. Biz imamlarımızın mübarək doğum günü münasibətilə keçirilən şənlik mərasimlərində də xalqın daxili duyğularının həyəcana gəldiyini dəfələrlə müşahidə etmişik.

Üçüncü sual budur ki, duyğuların təhrik edilməsində bu kimi şən mərasimlərdən istifadə olunurmu? Niyə ağlamalıyıq, sinə vurmalıyıq? Gəlin bunların əvəzinə bayram məclisləri keçirək, şirni, noğul paylayaq, mədhnamə oxuyaq və s.

Cavabı budur ki, insanların qəlbi, duyğu və hissləri fərqli xüsusiyyətlərə malikdir. Hər növ hiss və duyğunu ona müvafiq mövzu ilə təhrikə gətirmək olar.

İslam tarixində ən böyük rol ifa edən hadisə Kərbəla faciəsi olmuşdur. İslam tarixinə istiqamət verən də İmam Hüseyn (ə) olmuşdur. İnsanları Qiyamətə qədər haqq yoluna istiqamətləndirən, müqavimət göstərməyi öyrədən, mübarizə məktəbini quran da o olmuşdur. Həmin xatirələrin yenidən yaşanması üçün ancaq şənlik məclisləri, bayram tədbirləri yetərmi? Bunun üçün o hadisəyə münasib tədbirlər görülməlidir. Yəni, xalqı o hadisəyə uyğun hüzndə saxlayan işlər görülməli və bu xatirələrə təsəlli və təskinlik gətirən göz yaşları axıdılmalıdır. Bu hadisədə belə bir rolu ifa edəcək vasitə də həmin əzadarlıq mərasimləridir. Gülmək və şənlənməklə heç vaxt bu təəssüratı yarada bilmərik. Gülmək, heç vaxt insanı şəhidlik ruhunda saxlaya bilməz. Gülmək, heç vaxt xalqa müharibənin yaratdığı ağrı-acıya, müsibətlərə dözməkdə təskinlik ola bilməz. Belə fədakarlıqlar üçün göz yaşlarında suvarılan, sızlayan qəlblərdən qol-budaq atan ilahi eşq lazımdır. Bütün bunlar Aşura məktəbində yetişir.

**Doktor Misbah Yəzdi**

# AŞURA
## BÖYÜK QURBANLAR MƏKTƏBİDİR

***Aşura - böyük qurbanlar məktəbidir. Candan keçmək, övladından keçmək, həyat yoldaşından keçmək, istəklərdən keçmək, rifahından keçmək, yuxusundan keçməkdir və bunların hamısı bir gündə baş vermişdi.***



**Canından keçmək**

İmam Hüseyn (ə) Allah dinini hifz etmək üçün canından keçdi. İmam Əli (ə) Peyğəmbərin (s) yatağında yatır və bu ayə nazil olundu: “İnsanlardan eləsi də var ki, Allahın razılığı üçün öz canını satır (hicrət gecəsi Peyğəmbərin - səlləllahu əleyhi və alihi və səlləm - yatağında yatmış Əli əleyhissalam kimi Allah yolunda canından keçir). Allah bəndələrə qarşı çox şəfqətli və mehribandır”. (“Bəqərə” 207). Allah mələklərə buyurur: “Sizlərdən hansınız canını başqa bir mələk üçün fəda etməyə hazırsınız? Baxın, görün Əli ibni Əbitalib (ə) canını necə fəda etdi”.

**Tanış ev**

İmam Hüseyn (ə) elə bir iş gördü ki, onun evi bizim hamımızın evi oldu. Necə ki, hər bir müsəlman namazını evində dörd rükətli qılır, Məscidul-həramda, Məscidun-Nəbidə, Kufə məscidində və şəhadət evində də 4 rükətli qılır. Bizim beş evimiz vardır, biz bu beş evdə namazı dörd rükətli qıla bilərik. Bu, necə bir evdir ki, qəribləri özünə doğma etmişdir? Ancaq İmam Hüseyn (ə) buyurur ki, burada qərib deyilsən. Bura öz evindir.

**Malından keçmək**

İmam Kərbəla torpağına gələn kimi həmin torpağı alır. Deyir: “Mən istəmirəm ki, qanım insanların torpağına tökülsün. İstəmirəm ki, mənim ziyarətimə gələn zəvvarlar ayaqlarını başqa insanların torpağına qoysunlar”. Bunun özü bir dərsdir və İmam Hüseyn (ə) əzadarları gərək insanların haqqını görməməzliyə vurmasınlar.

**Yuxudan keçmək**

Zeynəbi-Kübra (s.ə) Şamu-qəribanda belə, gecə namazını qılmışdı. Ancaq ayağa qalxmaq istədi, lakin yıxıldı. Dizlərində taqət yox idi. Quran buyurur: “(Gecənin qaranlığında) Yataqlarından qalxar, Rəbbini qorxu ilə və umaraq çağırarlar və ruzi olaraq onlara verdiklərimizdən (elm, məqam və mal-dövlətdən ehtiyacı olanlara) sərf edərlər. Etdikləri işlərin mükafatı olaraq onlar üçün gözlərə işıq gətirən nələrin gizlədildiyini heç kəs bilməz!” (“Səcdə” 16-17). Maraqlısı budur ki, İmam Hüseyn (ə) də Aşura gecəsi gecə namazını qılmışdı. Yəni namaz onu düşməndən qafil etmirdi.

**Döyüş meydanında namazı iqamə etdi**

Allah buyurur: “(Təhlükə zamanı) aralarında olub onlar üçün (xof) namaz(ını camaat namazı şəklində) qıldığın zaman, onlardan bir dəstə (sənin namazının birinci rükətində) səninlə birgə qalxsınlar (və namaz qılsınlar) və əlbəttə öz silahlarını da götürsünlər. Elə ki, səcdəyə getdilər (və namazın ikinci rükətini camaat namazı deyil, tək qılınan namaz niyyəti ilə tamamladılar, gedib) sizin arxanızda (düşmənin qarşısında) dursunlar və namazını qılmamış digər bir dəstə gəlsin və öz namazlarını sənin (ikinci rükətin) lə birgə qılsınlar. Əlbəttə gərək ehtiyatlı olsunlar və silahlarını götürsünlər. Çünki kafirlər istəyirlər ki, siz öz silahlarınızı və mallarınızı yaddan çıxarasınız, beləliklə də onlar qəfildən sizə hücum etsinlər. Əgər yağışdan əziyyət çəksəniz, yaxud xəstə olsanız, silahlarınızı yerə qoyaraq ehtiyat halında olmağınız sizin üçün günah

deyildir. Həqiqətən Allah kafirlər üçün alçaldıcı bir əzab hazırlamışdır”. (“Nisa” 102). Düşmən istəyir ki, siz qafil olasınız. İmam (ə) buyurur: “Bir əliniz Quranda, bir əliniz silahda”. İmam Hüseynin (ə) dilində namaz idi və əlində silah.

**Övladından və qardaşından keçdi**

Həzrət Əli Əkbər (ə) cəddi Peyğəmbərə (s) çox bənzəyirdi. Yəni abır-həyası da Peyğəmbər (s) kimi idi. Gözləri Peyğəmbərin (s) gözləri kimi idi. Nə zaman Peyğəmbəri (s) xatırlayırdılar, Əli Əkbərin (ə) simasına baxırdılar. İmam (ə) bu gözəl simalı cavanından keçdi, süd içən körpəsindən keçdi. Bu 72 nəfərin içərisindən 18 nəfəri Əhli-beytdən (ə) idi.

**Məskənindən keçmək**

Aşura günü xeymələrə atəş vurdular. İmama (ə) yazılan on iki min məktubdan sonra ona bu cür vəfasızlıq edildi. “Odur ki, Allaha verdikləri vədə xilaf çıxdıqlarına və daim yalan danışdıqlarına görə, Allah Onunla görüşəcəkləri günə (Qiyamət gününə) kimi onların qəlblərinə bir nifaq saldı”. (“Tövbə” 77).

**Abrından keçmədi**

İmam Hüseyn (ə) qiyam edən zaman dedilər ki, zəmanənin xəlifəsinə qarşı çıxmışdır. Ona görə də öldürülməlidir. Hər kim Yezidə qarşı çıxarsa, qiyam etmiş sayılar. İndi ki, qiyam edib, gərək öldürülsün. Ömər Səd deyəndə ki, gedin İmam Hüseyni (ə) öldürün, deyir: “Ey Allah ordusu!”. Bəli, nə qədər acınacaqlı səslənir - Yezidin ordusuna deyir ki, Allahın ordusu.

**Kərbəlada hər şeyindən keçdi**

Kərbəlada İmam (ə) hər şeyindən keçir. Biz gərək Aşuradan dərs alaq. Əbəlfəzl Abbas (ə) suyu dodaqlarına tərəf aparmaq istəyir, ancaq susuz uşaqlar gözünün önünə gəlir. Ona görə də bu sudan içmir.

Bu gün də Kərbəla davam edir və biz də Aşura səhnəsinin qəhrəmanı olmaq üçün imkansızlara yardım etməli və yetimləri himayə edib, onlara yiyə durm alıyıq.




## Bəs biz nəyimizdən keçmişik?

***Biz nəyimizdən keçmişik? İndi ki, qeybət etmişik - gərək halallıq alaq, böhtan atmışıq – gərək halallıq alaq, kimisə incitmişik – gərək halallıq alaq.***

***İmam Hüseyn (ə) kimi yaşayıb, onun kimi əxlaqa malik olmağa çalışaq. Belə ki, o, Allah yolunda hər şeyindən keçməyə hazır idi və bunu etdi də. Bəs biz Allah yolunda nə etmişik - bir qədər bu haqda düşünək.***



# MƏHƏRRƏM AYININ 9-CU GÜNÜ NƏ BAŞ VERDİ?

1. İmam Hüseynin (ə) xeymələrinin mühasirəyə alınması
2. Şümrün amannaməsinin həzrət Abbas (ə) tərəfindən rədd olunması
3. İmam Hüseyn (ə) tərəfindən müharibənin təxirə salınması istəyi
4. İmam Hüseynin (ə) (əshabına) xitabı
5. İmam Hüseyn (ə) xeymələrinin ətrafında xəndəklərin qazılması
6. Şəhadət qüslü

**İmam Hüseynin (ə) xeymələrinin mühasirəyə alınması**

İmam Sadiq (ə) buyurub: Tasua günü, imam Hüseyn (ə) və onun ətrafında olanlar Kərbəlada mühasirəyə alındı, Şam qoşunu o həzrəti öldürmək üçün toplananda Mərcanənin oğlu və Ömər İbn Səd onların ətrafında toplanan qoşunların sayının çoxluğundan sevinirdi. O həzrəti və onun dostlarını zəif sayıb, onlara kömək gəlməyəcəyini, iraqlıların Həzrətə kömək etməyəcəyini yəqin etdilər.

**Şümrün amannaməsinin həzrət Abbas (ə) tərəfindən rədd olunması**

Tasua günü məlun Şümür, həzrət Abbas (ə) və onun qardaşları üçün amannamə (onların təhlükəsizlikdə olmasını göstərən şəhadətnamə) gətirdi. Şümür, imam Hüseynin (ə) xeymələrinə çatan zaman qışqırdı: “Bacımızın oğlanları hardadı?” O böyük şəxslər cavab vermədilər. İmam Hüseyn (ə) buyurdu: “Fasiq də olsa ona cavab verin!” Həzrət Abbas (ə) onun cavabında buyurdu: “Nə deyirsən?” Şümür dedi: “Mən sizə Übeydullah tərəfindən amannamə gətirmişəm. Hüseyn (ə) üçün özünüzü ölümə verməyin! ” Həzrət Abbas (ə) uca səslə buyurdu: Allahın lənəti sənə və sənin amanına olsun! Peyğəmbərin (s) qızının oğlu amanda olmadığı halda biz amanda olaq?!” (Ənsabül-əşraf, c. 3, səh. 184)

**İmam Hüseyn (ə) tərəfindən müharibənin təxirə salınması istəyi**

Məhərrəmin doqquzunda, əsr vaxtı Ömər ibn Səd öz qoşunlarına üz tutub bağırdı: “Ey Allah ordusu, sevinin ki, cənnətə gedirsiniz! Beləliklə onun ordusu, imam Hüseynin (ə) xeymələrinə tərəf hərəkət etdi. İmam, öz xeyməsinin önündə oturub qılıncına söykənmişdi. Başını dizinin üstünə qoymuşdu. O zaman mübarək başını qaldırıb həzrət Əbəlfəzlə (ə) buyurdu: “Ey Abbas, canım sənə fəda olsun, ata süvar ol, onlardan soruş ki, nə üçün buraya gəliblər?” Həzrət Abbas (ə) iyirmi nəfər səhabə ilə birlikdə düşmən qoşununa tərəfə gedib onların nə üçün gəldiklərini soruşdu. Ömər ibn Səd onun cavabında dedi: “Ya, Yezidlə beyət edin, ya da, qanlı döyüşə hazır olun”. Həzrət, onlara dedi: “Gözləyin, sizin sözününü İmam Hüseynə (ə) çatdırım.” Onların sözünü o həzrətə (ə) çatdırdı. Həzrət (ə) buyurdu: “Qardaşım Əbəlfəzl! Düşmən ordusuna qayıt, namaz və Allaha razü niyazla məşğul olmaq üçün bu axşamı onlardan möhlət al. Allah bilir ki, mən namaza, Quran oxumağa və dua etməyə məhəbbət bəsləyirəm. ” Beləliklə də müharibə təxirə düşdü.

**İmam Hüseynin (ə) (əshabına) xütbəsi**

İmam Səccad (ə) buyurub: Atam imam Hüseyn (ə), aşura gecəsi öz əshabını öz yanına çağırdı. Onun sözlərini eşitmək üçün Mən də xəstə olduğum halda onun yanına getdim. Atam, əshaba və öz köməkçilərinə buyurdu: “Ən gözəl sitayişlərlə Allaha sitayiş edir, xoşluq və rahatsızlıqda Ona təşəkkür edirəm. İlahi, Sənə şükür edirəm ki, bizi Peyğəmbərlə (s) əziz etdin, Quran elmi, dinin fiqh elmini bizə kəramət buyurdun. Bizə, eşidən qulaq, görən göz və ayıq ürək əta etdin. Bizi şükür edənlər sırasında qərar ver! Həqiqətən də mənim yoldaş və əshabımdan daha yaxısı və daha vəfalılarından sorağım yoxdur. Öz Əhlibeytimdən (ə) daha itaətçi, daha sileyi-rəhmə bağlı qalanını tanımıram. Mənə kömək etdiyinizə görə Allah sizə yaxşı mükafat versin. Bilirəm ki, sabah bunlarla döyüşəcəyik. Mən, sizinlə olan beyətimi aradan qaldırıram. Yola düşüb getməniz və təhlükəli məkandan uzaqlaşmanız üçün gecənin qaranlığından örtük kimi istifadə etmənizə icazə verirəm. Sizlərdən hər biriniz Əhli-beytimizin (ə) bir nəfərinin əlini tutub kənd və şəhərlərə dağılın ki, Allah, (sizi bəladan xilas etməklə) öz fərəcini sizin üçün qərar versin. Bu camaatın işi, mənimlədir. Mənə əlləri çatsa, sizinlə işləri yoxdur.” İmamın buyurduqlarından sonra O həzrətin ailəsi və silahdaşları, bir-birinin arxasınca qalxıb şəhadətədək öz fədakarlıqlarını və imam Hüseynə (ə) vəfalı olacaqlarını ciddi olaraq bildirdi. (Kəmali-ibn Əsir, c. 4. səh. 57, Əl-irşad, c. 1, səh. 91).

**İmam Hüseyn (ə) xeymələrinin ətrafında xəndəklərin qazılması**

İmam Hüseyn (ə) köməkçilərinə fərman verdi ki, xeymələrin ətrafında xəndək qazsınlar. Onu ox və neylə doldursunlar və düşmən hücum edən zaman onları yandırsınlar, düşmənlə xeymələr arasında yolu kəsib təkcə imamın (ə) köməkçilərinin yerləşdiyi hissəni açıq qoysunlar və döyüş orada həyata keçsin. (İmamül-Hüseyn (ə) və əshabuhu, səh. 257)

**Şəhadət qüslü**

İmam Hüseyn (ə) həzrət Əli Əkbəri otuz nəfər süvari və iyirmi nəfər piyada qoşunla su fəratdan su gətirmək üçün göndərdi. Onlar öz tuluqlarını su ilə xeymələrə gətirdi. İmam öz əshabına üz tutub buyurdu: Qalxın və su için. Bu, sizin sonuncu azuqənizdir. Dəstəmaz alın, qüsl edin və paltarlarınızı yuyun ki, sizin kəfəniniz olsun. Nəql olunub ki, Əbdürrəhman və Bürəyr ibn Xuzəyr təmizlənmək - hamam və nəzafət üçün nəzərdə tutulan çadırın qapısında növbədə durmuşdu. Bürəyr Əbdürrəhmanla zarafat edirdi. Əbdürrəhman ona dedi: “İndi zarafat vaxtı deyil”. Bürəyr dedi: Mənim qohumlarım bilir ki, nə cavanlıqda nə də yaşlılıqda (qocalıqda) zarafat əhli olmamışam. Mənə səadət və cənnət vəd olunduğu üçün, (sər əz pa tanımıram) sevindiyimdən özümə sığmıram, özümlə cənnət arasında məsafənin təkcə şəhadət olunduğunu bilirəm. (“Əmaleyi-Şeyx Səduq”, səh. 221, 30-cu məclis).

# AŞURA

## MƏHƏRRƏM AYININ 10-CU GÜNÜ NƏ BAŞ VERDİ?



**İmam Hüseynin (ə) münacatı**

Şəhidlər ağası, sübh vaxtı, sübh namazını öz vəfalı əshabı ilə qıldı. Sonra mübarək əllərini göyə tərəf qaldırıb belə münacat etdi: “Ey Allah! Çətinliklərdə həmişə mənim sığnacağım və ümidimsən. Mənə nazil olanlarda pənah və köməkçimsən. Ey Allah! Ürəyi sındıran, çarəsiz, dostu rahatsız edən, düşmənin tənəsinə səbəb olan ağrılı yaralardan sənə şikayət edirəm. Sənə ümid etmək, insanı başqasına ürək bağlamaqdan ehtiyacsız edir. Bağlı qapıları aç, ümid işığını göstər! Bütün nemətlər və yaxşılıqlar Sənindir! Sən arzuların təkcə (son) məqsədisən (Əl-irşad, c. 2, səh. 96. )

**İmam Hüseynin (ə) öz qoşununu nizama salması**

Şəhidlər ağası Həzrət Hüseyn (ə), sübh namazından sonra xeymələrin önünə gedib 32 süvari, 40 piyadadan ibarət qoşununu yer-bəyer etdi. Onları üç dəstəyə böldü. Züheyr ibn Qeysi sağ tərəfdə, Həbib ibn Məzahiri sol tərəfdə duran dəstənin başçısı təyin etdi. Üçüncü dəstəni onların arasında qurmasını qərara alıb, özü də orta dəstə sırasında durdu. Bayrağı, qardaşı həzrət Əbəlfəzl Abbasa (ə) tapşırdı. (Əl-irşad, c. 2, səh. 95. )

**İmam Hüseynin (ə) xütbəsi**

İmam Hüseyn (ə) çox çalışırdı ki, döyüşün və qan tökülməsinin qarşısını alsın. Daş qəlbləri bəlkə yumşalsın və yatmış vicdanları oyansın deyə dəfələrlə düşmən ordusuna nəsihət edib, öyüd verdi:



“Ey camaat! Mənim sözümü eşidin və müharibəyə tələsməyin ki, qoy mənə vacib olanı və üzərimdə olan haqqınıza görə sizə moizə edim və məsələnin həqiqətini sizə deyim. İnsafa gəlsəniz səadətə çatacaqsız. Əks təqdirdə ədalət və insaf yolundan çıxmış olacaqsız. O zaman qərara gəldiyinizi yerinə yetirin, bizimlə döyüşün. Böyük Allah mənim ixtiyar Sahibimdir. O Allah ki, Quranı nazil edib, xeyir əməl sahiblərinin ixtiyarı Onun əlindədir.

Mənim əsil-nəsəbimi xatırlayın, görün ki, mən kiməm?! Özünüzə gəlin və özünüzü qınayın! Baxın, məni öldürmək və hörmətimi sındırmaq rəvadırmı?! Mən, Peyğəmbərinizin (s) qızının oğlu, onun canişini və əmisi oğlunun övladı deyiləmmi? O kəs ki, hamıdan öncə iman gətirib, Allahın Rəsulunun (s) Onun tərəfindən gətirdiyini təsdiqlədi?! Şəhidlər ağası Həmzə mənim əmim deyilmi?! Cənnətə daxil olması üçün Allahın iki qanad verdiyi Cəfər Təyyar mənim əmim deyil?! Allahın Rəsulunun (s) mənim və qardaşım haqqında **“bu iki nəfər, cənnət cavanlarının ağasıdır”** deyə buyurduğunu bilmirsiniz?!

Sözümü qəbul etməyib, sözümün düzlüyündə şübhə edirsinizsə, and olsun Allaha ki, Onun yalan danışanlara düşmən olduğunu bildiyimdən bəri yalan danışmamışam. Sizin aranızda düzlükdə məşhur olanlar var ki, mənim sözlərimi təsdiqləyir. Cabir ibn Əbdullah Ənsari, Əbu Səid Xidri, Səhl ibn Səd Ənsari, Səhl ibn Səd Səidi, Zeyd ibn Ərqəm və Ənəs ibn Malikdən soruşun ki, Allahın Rəsulundan (s) eşitdiklərini danışsınlar və mənim sözümün düzlüyü sizin üçün sübut olsun. Bu şahidlik mənim qanımı tökmənizin qarşısını almaz?! (Biharül-ənvar, c. 45, səh. 6)

**Döyüşün başlanması**

Ömər ibn Səd, İmam Hüseynin (ə) qoşununa yaxınlaşdı. Oxu kamana qoyub o Həzrətin qoşununa tərəf atdı və dedi: “Hamınız Übeydullah ibn Ziyadın yanında şahidlik edərsiniz ki, ilk olaraq mən, onlara tərəf ox atdım.”

Beləliklə rəsmən döyüş başladı. İmamın (ə) əshabından hər biri bərabər olmayan döyüşdə düşmən qüvvəsindən onlarla şəxslə və ya tək-bətək döyüşə qoşuldu. Onlarda heç bir qorxu və şübhə görünmürdü. Onların belə bir etiqadla döyüşkənlik ruhiyyəsinə malik olması düşmənin belini sındırırdı. Elə düşünürdülər ki, imam Hüseynin (ə) qoşunu, elə döyüşün ilk əvvəlində məğlub olacaq. Lakin döyüş başladıqdan sonra anladılar ki, iman və əqidə ilə möhkəmlənmiş qala qarşısında üz-bəüzdülər və onları məğlub etmək asan iş deyil.

**İmam Hüseynin (ə) köməkçiləri Aşura gününün sübhündən əsrədək döyüşə davam etdilər. Axrıncı damla qanlarınadək İmam Hüseynin (ə) müdafiəsi üçün canfəşanlıq edirdilər. Onlardan Həbib ibn Məzahir, Müslim ibn Övsəcə, Hürr ibn Yəzid Riyahi, Zühəyr ibn Qeys, Hafe ibn Həlal, Bürəyr ibn Xəzir, Abbas ibn Əbi Şəbib və onlarla qəhrəmanlıq və mərdlik nümunəsini saymaq olar.**



### Aşura gününün zöhr namazı

Zöhr namazının vaxtı gəlib çatdıqda Əbu Səmamə Soydavi imam Hüseynə (ə) ərz etdi: " Ey Əba Əbdillah, qurbanın olum, bu dəstə bizə yaxınlaşıb. And olsun Allaha ki, mən sizdən tez şəhid olmalıyam. İstəyirəm ki, sizinlə namaz qıldıqdan sonra Allahla görüşüm!"

O Həzrət başını səmaya qaldırıb, buyurdu: "Namazı xatırlatdın, Allah səni namaz qılanlardan qərar versin." O zaman, Zühəyr ibn Qeys və Səid ibn Əbdullaha göstəriş verdi ki, onların namaz qılması üçün o həzrətin önündə dursunlar. İmam (ə), köməkçilərinin yarısı ilə birlikdə namaz qıldı. ("Yənabiül-məvəddə", c. 3, səh. 70, - "Biharül-ənvar", c. 45, səh. 21).

### Bəni Haşimin şəhadəti

İmam Hüseynin (ə) köməkçiləri, bir-bir, misilsiz və qəhrəmancasına mübarizə edib şəhadət dərəcəsinə nail olduqdan sonra, imamət məqamının müdafiəsi uğrunda fədakarlıq göstərməyə başladılar.

### Kərbəla səhrasının Səqqası - həzrət Əbəlfəzl Abbas (ə)

Həzrət Abbas (ə) Ümmül-Bəninin böyük övladı, Əmirəl-mömininin (ə) dördüncü oğludur. Künyəsi Əbülqasim, ləqəbi Səqqa, İmam Hüseyn (ə) qoşununun ələmdarıdır. Gözəl görünüşlü olduğu üçün ona, "Qəməri-Bəni-Haşim" (Bəni-Haşimin Ayı) deyirdilər. Qədd-qaməti o qədər uca idi ki, ata səvar olanda mübarək ayağı yerə çatırdı.

İmam Sadiq (ə) buyurub: Əmim Abbasın (ə) nüfuzlu bəsirəti və möhkəm imanı var idi. İmam Hüseynin (ə) kənarında sona qədər mübarizə edib şəhadətə çatdı. (Məqatilul-talibin, səh. 90- Biharül-ənvar, c. 45, səh. 39).

Rəvayətdə var ki, həzrət Abbas (ə) İmam Hüseynin (ə) məzlumluğunu görüb, onun hüzuruna özünü yetirib ərz etdi: "Meyadana getmək üçün mənə icazə verirsənmi?!"

İmam, bu sözü eşitdikdən sonra bərk ağladı və buyurdu: "Ey qardaş, sən mənim bayraqdarımsan!"



Ərz etdi: Ürəyim sıxılır, dünyadan yorulmuşam, istəyirəm ki, bu münafiqlərlə döyüşəm. İmam buyurdu: "İndi ki, meydana getməyi qərara almısan, öncə bu kiçiklər üçün bir az su gətir." O zaman Bəni-Haşimin Qəməri atına süvar oldu, tuluq və nizəsini götürdü və Fərat çayına tərəf yol aldı. Ömər ibn Sədin dörd min oxçusu, Fərat çayının ətrafını sarıb qoruyurdu. Ona tərəf ox atmağa başladılar. O şücaət nümunəsi, şir kimi düşmən ordusunun sıralarını yarıb, zalim düşməndən bir neçəsini öldürdü. Düşmən ordusu həzrət Abbasın (ə) şücaəti qarşısında çarəsiz qalıb nə edəcəyini bilmirdi. Ətrafa dağılışmağa başladılar. O, Fərata çatdı, istədi ki, bir qədər su içsin. Sudan bir ovuc götürdü. Amma İmam (ə) və onun əhli-beytini xatırlayıb suyu çaya tökdü. Tuluğu doldurub susuz dodaqlarla Fəratdan xaric oldu.

Ömər ibn Sədin ordusu hər tərəfdən onun yolunu bağlayıb mühasirəyə aldılar. Heç zaman qorxmayan Abbas (ə) şücaətdə misilsiz idi. Sürətlə onlara hücum etdi. Öz yoluna davam edirdi ki, birdən Nofəl Əzrəq adlı düşmən onun sağ əlini kəsib bədənindən ayırdı. Tuluğu sol tərəfə götürdü. Yenə də o məlun ona tərəf hücum etdi, sol əlini də kəsib ayırdı. (başqa bir rəvayətə görə Həkim ibn Tufeyl adlı zalim, bir ağacın arxasında gizlənib Bəni-Haşim Qəmərinin (ə) qolunu kəsdi. Abbas tuluğu sinəsinə yapışdıraraq möhmək dişinə aldı. Bu zaman bir ox tuluğa dəydi və içindəki su axdı. Sonra onun sinəsinə və gözünə ox vurdular. Bir rəvayətə əsasən bir məlun o Həzrətin mübarək sinəsinə nizə vurdu və o atın üstündən yerə düşdü.

Son anda qardaşını səslədi. İmam yubanmadan ata süvar olub özünü həzrət Abbasa yetirdi. Onun yaralardan parça-parça olmuş bədəninin yanında şiddətlə ağladı və buyurdu: "İndi belim sındı. Çarəsiz qaldım. O zaman həzrət Abbas (ə) canını Yaradana təslim etdi, başdan-başa eşq, mərifət və fədakarlıqla dolu olan ruhu Canana tərəf qanad çaldı. (Məqtəlül-Hüseyn (ə), məqrəm: səh. 282- Təzəllümi-Zəhra (ə) səh. 120)

### Sonuncu vida

İmam Hüseynin (ə) yaxınları və köməkçiləri şəhid olandan sonra, o, tək-tənha Ömər ibn Sədin qoşununun önündə **“Həl mən nasirun yənsuruni”** (mənə bir kömək edən yoxdur?) deyə fəryad etdi ki, bəlkə ürəyi oyaq bir müsəlman küfr ordusuna qarşı onun köməyinə gəlsin. O qəlbi kor olmuşların heç biri cavab vermədi. İmam (ə) öz əhli-beyti (ə) ilə sonuncu dəfə vidalaşmaq üçün xeymələrə gəldi. Onlar xeymələrdən çölə çıxıb Həzrətin ətrafına yığıldılar. İmam onları səbrə çağırıb buyurdu: “Çətinliyə hazır olun, bilin ki, Allah taala sizi qoruyur. Tezliklə sizi düşmənlərin şərrindən qurtaracaq. Sizin axrınızı xeyirə, düşmənlərinizi isə müxtəlif bəlalara salacaq.” (Nəfsul-məhmum, səh. 355).

Qadın və qızların ağlamaq səsi ucalmışdı və İmam hər kəsə təsəlli verirdisə o sakit olurdu.



### Şəhidlər rəhbəri Həzrət Əba Əbdillahil Hüseynin (ə) şəhadəti

İmam Hüseyn (ə) bütün əhli-bet və əshabını itirdiyi halda Ömər ibn Sədin qoşunu qarşısında tək-tənha qalmışdı. Onlara sonuncu dəfə nəsihət etdikdən sonra özünü şəhadətə hazır etdi. Öncə döyüşmək üçün onlardan mübarizə tələb etdi. Allahın şirinin övladının qarşısına hər kim çıxırdısa həlak olub torpağa düşürdü. Beləliklə, düşmənin çox sayda güclü pəhləvan döyüşçüləri məhv oldu. Ondan sonra meydana gəlmək üçün heç bir kəsdə cürət yox idi.

Nəhayət Ömər ibn Səd fəryad çəkdi: “Vay olsun sizə! Bilirsiniz kimlə döyüşürsünüz? (Haza qəttalul-ərəb). Bu, ərəbləri öldürən Əli ibn Əbu Talibin övladıdır. ” Sonra göstəriş verdi ki, İmamı (ə) hər tərəfdən mühasirəyə alıb, ona hücum etsinlər.

İmam qəzəbli bir şir kimi onlara hücum edir və hər hücumda onlardan bir neçəsini öldürürdü. İsti hava və çox susuz halda mübarizə etmək, taqətini azaltmışdı. İstirahət etmək üçün bir an dayanmışdı ki, bir daş mübarək alnına dəydi. Mübarək üzündən qanı təmizləmək üçün öz paltarını götürdü. O zaman bir üç başlı, dəmir və zəhərli ox Həzrətin mübarək sinəsinə batdı. İmam oxu çıxartdı. Sinəsindən axan qanın altına əlini tutdu, qanı səmaya səpdi. Yenə də mübarək əlini o qanla doldurub öz üzünə sürtdü və buyurdu: “Cəddim Rəsulullahla (s) belə görüşüm və deyim ki, məni filan və filan şəxs öldürdü.” (“Məqtəli-xarəzmi”, c. 2, səh. 39- “Biharül-ənvar”, c. 45. səh. 53).

Sonra Ömər ibn Sədin ordusu hər tərəfdən imama (ə) ox və nizə atdılar. Deyirlər ki, Həzrətə o qədər ox dəydi ki, onun zirehi oxla doldu. Bütün o oxlar, Həzrətə öndən dəymişdi. (Mənaqibi-Ali- Əbi Talib (ə), c. 4, səh. 111).

Saleh ibn Vəhəb Mozni, İmamın (ə) mübarək böyrünə nizə vurdu. Onun təsirindən Həzrət atdan yerə yıxıldı, sağ tərəfi üstə yerə düşdü və buyurdu: “Bismillahi və billahi və əla milləti rəsulillah” . Bəziləri yazır: İmamın pak bədəni, bir müddət Kərbəla torpağında qaldı. O Həzrət öz qanına boyanıb, yerdə çabalayırdı. Lakin heç kəsin ona yaxınlaşmağa cürəti yox idi.

(Kamil ibn Əsir, c. 4, səh. 78).

İmam (ə), son anlarında Rəbbinə belə münacat edirdi: (Səbrən əla qəzaik, ya Rəbbi, la ilahə illa sivak, ya Ğiyasəl-müstəğisin!)

Bu anda, Şümr öz qoşununa fəryad edib dedi ki, “nə gözləyirsiniz, nə üçün Hüseynin işini bitirmirsiniz?!”

### Xeymələrin qarət olunması

Ömər ibn Sədin qoşunu, İmam Hüseynin (ə) şəhadətindən sonra, o Həzrətin xeymələrinə soxuldular. Onlar, bu işdə bir-birləri ilə yarışır, xeymələrdə olan hər bir şeyi yağmalayırdılar. Hətta Əhli-beytin (ə) məqamına ehtiram etməyib onların zinət əşyasını, paltar və əşyalarını zorla alırdılar. Sonra xeymələrə od vururdular. O zaman, uşaqlar və qadınlar xeymələrdən çölə çıxırdılar. Canlarını qorumaq üçün qızmar və tikanla dolu səhrada dörd tərəfə qaçırdılar...

(“Lühuf”, səh. 180, “Biharül-ənvar”, c.45, səh. 57).






***Müslim ibn Övsəcə Bəni-Əsəd qəbiləsinin böyüklərindən idi. Tarix kitablarında onu Həzrət Muhəmməd peyğəmbərin (s) səhabəsi olaraq göstərirlər. Müslim Həzrət Əlinin (ə) yaxın silahdaşı olmuş, onun qoşununun tərkibində bütün müharibələrdə iştirak etmişdir.***

**Müslim dövrünün insanları arasında öz şücaəti ilə seçilirdi.**

Müslim ibn Əqil Kufədə gizli fəaliyyətə başlayanda, Müslim ibn Övsəcə Kufədə gələcək üsyan üçün silah tədarükü görürdü. Kufədə vəziyyət dəyişdikdən sonra Müslim ibn Övsəcə köhnə dostu Həbib ibn Məzahirlə birlikdə şəhəri tərk edir və Kərbəlaya gəlib, İmam Hüseynə (ə) qoşulur.

Müslim ibn Övsəcə deyəndə, hər kəs imanlı, Allahdan qorxub çəkinən bir adamı, həm də qəlbi Əli (ə) eşqi ilə yanan bir kəsi xatırlayırdı. Qəlbində olan Allah sevgisi onu İmam Hüseynin (ə) yanına gətirdi. Bildiyimiz kimi, Kərbəlada döyüş əvvəl təkbətək olurdu. Düsmən qoşunu ilə İmamın (ə) qoşunu təkbətək vuruşurdu.

Təkbətək döyüşdə çox itki verdiyini başa düşən düşmən qoşununun başçısı Əmr ibn Həccac Zibeydinin məsləhəti ilə Ömər ibn Səd əsgərlərinə təkbətək döyüşə getməyi qadağan etdi. Çünki, düşmən əsgərləri İmam Hüseynin (ə) səhabələrinin şücaətini görüb, qorxuya düşmüşdülər ki, əgər döyüş bu gedişlə davam etsə, Ömər ibn Sədin qoşunundan əsər-əlamət qalmaz. Əsgərlərə tapşırıldı ki, bundan sonra qarşı tərəfi uzaqdan-uzağa oxa və daşa tutsunlar. Döyüş meydanına çıxan hər səhabəni mühasirəyə alıb qətlə yetirsinlər.



Bu əmrdən sonra Əmr ibn Həccac tabeliyində olan qoşunu toplayıb İmam Hüseynin (ə) dəstəsinin sağ cinahı üzərinə şiddətli hücuma keçdi. Haqq qoşunu mərdliklə müdafiə olunub, düşmənin xeyli qoşununu məhv etdilər. Axırda düşmən əsgərləri öz itkilərini hiss edib, bu yolla qələbə qazanmaqdan naümid oldular və tələsik geri çəkildilər.

Döyüş meydanında toz-duman yatandan sonra məlum oldu ki, İmamın (ə) cəsur silahdaşı Müslim ibn Övsəcə ölümcül yaralanıb. Müslimin ölüm ayağında olduğunu eşidən İmam Hüseyn (ə), Həbib ibn Məzahiri də götürüb, şəxsən onun başı üstünə gəldi və belə söylədi: “Ey Müslim, Allahın rəhməti olsun sənə!”. Sonra İmam (ə) bu ayəni oxudu: “Onlardan kimisi şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir. Onlar verdikləri sözü əsla dəyişməzlər”.

Sonra Həbib ibn Məzahir Müslimə xitab edərək söylədi: “Müslim, sənin ölümün mənə çox ağırdır, amma səni cənnətlə müjdələyirəm”. Müslim zəif səslə cavab verdi: “Allah səni sevindirsin”. Sonra Həbib dedi: “Əgər az sonra özümün də öləcəyimi yəqin bilməsəydim, çox istərdim ki, sənin son vəsiyyətini eşidib ona əməl edim” . Müslim isə əli ilə İmama (ə) işarə edərək belə söylədi: “Sənə bunu vəsiyyət edirəm ki, onu ölüncəyə kimi qoru”. Həbib cavab verdi: “Arxayın ol, vəsiyyətinə əməl edəcəm”.

Rəvayətə görə, Aşura axşamı İmam Hüseyn (ə): “Mən sizdən beyətimi götürdüm, gedə bilərsiniz”, – dedikdə o, cavab verir: “Ey Peyğəmbər övladı, səndən ayrılıb gedək?! Xeyr, Allaha and olsun ki, mən səndən ayrılmaram alova atsalar, yenə də səndən dönmərəm!”.

**Bu şüarı əlində tutan Müslim ibn Övsəcə şəhadətə qovuşdu.**

***Uca Rəbbimiz bizləri də Müslim ibn Övsəcənin cərgəsində olanlardan qərar versin, inşəallah.***





# Hüseyn aşiqi BEYZA ƏRDƏBİLİ

***Artıq qəm ayı, qəlbində az da olsa iman olan şəxsləri qəmə, kədərə qərq edən bir Məhərrəm ayıdır. Bu ay poeziya rubrikamız da ancaq qəm dolu, Kərbəla hadisələrini, hər zaman ürək sızlayan Aşura şerləri ilə oxucuları, dinləyiciləri həm qəmləndirən, həm düşündürən şairləri sizinlə görüşdürəcək, onların həyat və yaradıcılığı barədə sizi məlumatlandıracağıq. Öncəki saylarımızda bir neçə dini mövzuda yazan şairlərinin həyat və yaradıcılıqlarını sizə təqdim etmişik. İndi isə növbə başqa bir Əhli beyt şairi - BEYZA ƏRDƏBİLİNİNDİR.***

Beyza Ərdəbili 1808-ci ildə Ərdəbil şəhərinin Süleymanşah məhəlləsinin İsmayıl bəy küçəsində olan bir evdə dünyaya göz açmışdır. Bu ev son zamanlara qədər "Beyza həyəti" adı ilə tanınırdı. Çox təəssüf ki, "Ərdəbil şairlərinin arifi" adı ilə tanınan Beyza Ərdəbilinin həyatının əvvəlki dönəmləri barədə heç bir məlumata rast gəlmədim. İstər Ərdəbil şairləri barədə məlumatlar verilən "Salikani-kuyi-eşq", istərsə Cənubi Azərbaycan şairləri barədə məlumat verilən "Təzkirətüş-şüərayi-Azərbaycan", istərsə də bir çox əsərlərdə şairin ancaq təvəllüdü və vəfatı barədə məlumat verilir. Ümumiyyətlə şairin valideynlərinin və müəllimlərinin kimliyi barədə, həyatı boyu hansı hadisələrlə rastlaşdığı məlum deyil. Təkcə şairin sənəti barədə az da olsa məlumat tapa bildim. Sənəti papaqçılıq olan şair bu işdən əlavə quzu dərisi ticarəti ilə də məşğul olurdu. Buxara, Bakı, İraq və Şamdan quzu dəriləri gətirərək satarmış.

Əvvəldə qeyd etdiyim kimi şairin həyatı barədə bir məlumata rast gəlməsəm də, əsərlərinə nəzər saldıqda onun Qurani-Kərim, Nəhcül-Bəlağə və həmçinin şərq aləminin böyük şairlərinin, əsasən də Xəqani Şirvani, Füzuli, Mövləvi, Sədi, Hafiz, Sənai və bir çoxlarının əsərlərini gözəl surətdə bildiyi aydın olur. Bununla yanaşı bir arif ruhlu şairin bu mərtəbəyə çatması üçün lazım olan bəyan və kəlam, əruz, qafiyə, kəlam, məntiq və bir çox elmləri bilməsinin şahidi oluruq. Deyilənə görə Beyza fiqh elmini bildiyi üçün bəzən vəkil kimi məhkəmələrdə iştirak edərək ona müraciət edən şəxslərin hüquqlarını müdafiə edirmiş.

Əsasən Əhli-beyt (ə) tərənnümçüsü olan şair demək olar ki, bütün şerlərində İmam Hüseyndən söz açır, bir şerində müsəlmanın imam Hüseyni (ə) necə yad etməsini deyir:

**Gəzər avarə, vurar başini daşdan daşə,**<br>
**Nalə eylər daldan zibh olunan bir başə,**<br>
**Bəli, lazımdı gərək şiə olan ağlaşə,**<br>
**Gərçi ağlaşmasa, biganələr bizə irad eylər.**



Bir mərsiyəsində isə İmam Hüseynin (ə) dilindən danışır. Beyza Ərdəbilinin bu şeiri demək olar ki, onun bütün əsərlərinin fövqündə dayanan bir əsərdir:

**Qanım Allah qanidür, ey qövm, tökün qanimi,**<br>
**Münzəli-Quran mənəm, möhkəm dutun iymanimi,**<br>
**Canü cananəm təcəllayi-rüxi-Cananəmi,**<br>
**Firqeyi "La yubsirun" görməz, di-rəxşan mahtək.**<br>
**Gah məkan, gəh laməkanəm, gah peyda, gəh nihan,**<br>
**Siz bilün, mən zati-pakəm, vəhyi ruhim, cani can,**<br>
**Baqiyi-mütləq mənəm, fanidü bu kövni-məkan,**<br>
**Bir hübabidür, sudan olmuş əyan, xərgah tək.**

Beyza Ərdəbili 1930-cu ildə Ərdəbil şəhərində dünyadan köçmüş və Şeyx Səfi məqbərəsinin şəhidlər məkanı adlanan səmtində (həmin yerdə Çaldıran döyüşündə şəhid olanlar dəfn edilib) dəfn edilmişdir. Ölümündən təqribən 30 il sonra şairin 510 səhifədən ibarət olan divanı Ərdəbildə çap olunmuşdur.

Aldı bir zalimi-birəhm əlinə şah əlini,
Nə cəsarətlə, Xudaya, kəsüb Allah əlini.

Bir Hüseyn ki, edərdi mələkut əhlinə naz,
Onilən kəşfdü afaqə dəri-məhfili-raz,
Parə-parə təni-bisərlə o sultani-hicaz,
Yaralı sinəyə qoymuşdu Yədullah əlini.

Əli qoynunda, ayaq yalın, o Zəhrayi-Bətul,
O yarali bədənün üstə gəlib zarü-məlul,
Mətbəxi-Xulidə söylərdi gəhi:- Vay, oğul,
Nə sitəmdür ki, açub firqeyi-xudxah əlini.

Bir elə vəqtdə nagəh yetib ol zalimi-dun,
Gördi bir cismdü güd ilə düşüb ğərqi-be xun,
Qoymeyublar qala ta köynəgi əgnində onun,
Bəs ki, zülmə açıb ol firqeyi-kin xah əlini.

İstədi haləti-yəs ilə o məluni-dəni,
Qətligəhdən qayıda, gördi o Şahi-Mədəni,
Hərəkət etdi qızıl qan arasında bədəni,
Qalxızub verdi nişan düşmənə nagah əlini.

Düşdi fürsət o dəni-zalimun, ey dad, əlinə,
Qorxmadı Həqdən, alub xəncəri-fulad əlinə,
Etdi bir noi xəyanət Şəhi-ovtad əlinə,
Həşrəcən qoydu ürəkdə Vəliyullah əlini.

Bir bədən ki, boyanub qanə quru yerdə qala,
Nə rəvadur o mübarək əli əllərdə qala,
Abiru qoymadılar Xətmi-peyəmbərdə qala,
Sariban kəsdi cəfa ilə o gün şah əlini.

Titriyüb yer, dutulub ay, qalub heyrətdə nücum,
Qarışub bir-birə ol vəqtdə ovzai-ümum,
Yazdı bu möhnəti, Beyzayə mühən etdi hücum,
Verdi Həqq üstə Hüseyn gəh başını, gah əlini.

**Şamun əhli nizədə bir başı pişvaz eylədi,**
**Natiqi-Quran idi, daş ilə dəmsaz eylədi.**

Nitqə gəldi qəhrilən Şiri-Xuda dürdanəsi,
Düxti-Zəhra Zeynəbəm, qalu-bəla məstanəsi,
Həyyul-Quran Hüseyndür, mən onun cananəsi,
Həq yolunda altı aylıq tifli sərbaz eylədi.

Bilmisüz müsdaqi-Kərrəmnadi qardaşım Hüseyn?
Nöqteyi-mövhumi-təhti-badi qardaşım Hüseyn.
Gəh nihani-məhz, gəh peydadi qardaşım Hüseyn.
Səbd edibdür hər bəlayə, dini ezaz eylədi.

Yandən atduz üsuli-məzhəbi, ey qovmi-kin,
"Kullu nəfsin zaiqəl-movt"-ə siz etmibsüz yəqin,
"Kulli şəyin halik illa vəchu Rəbbik"-dür Hüseyn,
Qütbi-əzəm nuki-neydə razin əbraz eylədi.

Piri-canbazi-həqiqət təşneyi-didari-yar,
Kənzü məxfidən olub əhbəbtu u-rəf aşikar,
Gördi vəhdət pərçəmin əfraşitə ol şəhriyar,
İçdi vəslət badəsün, Məbudinə naz eylədi.

Əlləməl-Qurani qoydi zirü padə şamiyan,
Nizədə vurdi ənəl-həqq birrixi la yəbğiyan,
Əkrəmüz-zəyfən - dedi ava ilən Piri-Muğan,
Əhli-Şamə həft babi-duzəxi baz eylədi.

Varisi-Yasin cida üstə açıbdur lamü bey,
Hansı əl sadir edub Səd oğluna fərmani-Rey?
Zeynəbün fəsli bəharun eyləyüb təbdili dey,
İştibahi-məhzdür, ruhin sərəfraz eylədi.

Bisitun bu çərxi-dəvvari Hüseyndür saxlayan,
Bilmisüz bu şəhrdə çoxdur ona dil dağlıyan?
Daş vurursuz, fikr edirsüz yox yarasın bağlayan,
Peyki-vəslətdür, degül daş, dəgdi pərvaz eylədi.

Ayrı bir aləmdi bu, dildar məst, yar məst,
Şümrü məstü Xuli məstü əştərü ğəddar məst,
Ərş məstü fərş məstü günbədi-Dəvvar məst,
Həq deyüb, Həqq yarini razinə həmraz eylədi.

Siz sayarduz Qadiri-Qəhharə min bir ad, mənəm,
Facirü fasiq olan əşxasə dildən düşmənəm,
Xaliqü ərzü səmayəm, cəngdə mərd öfkənəm,
"İqrə bismi-Rəbbikə" şövq ilə ağaz eylədi.

Qəhrü mehri bilmiyirsüz, Əkbər O Əkbərdədür,
Hökmi-duzəx, hökmi-cənnət Xaliqi-Davərdədür,
Əsli-təbliğim mənim, ey qovm, təşti-zərdədür,
Əkbəri Allahu Əkbər yarü mümtaz eylədi.

Laməkan daim məkan eylər dili-agahdə,
Mən odur seyr eylərəm mülki-fəna fillahdə,
Həmrədif olduz niyə süz cərgeyi-rubahdə?
Şirdür oğlum, özün zəncirə dəmsaz eylədi.

Nizədə başlar tilölö eyləyirdi mah tək,
Vəchi vəchullah verdi nuru vəchullah tək,
Qıldı fərmayiş: Hüseynəm mən, təkəm, Allah tək,
Mərhəba, Xəllaqi-adəm gör nə ecaz eylədi,

Şamun əhli! Bu qədər zülm etəməgə məmursuz,
Dini dünyayə satıb, insaniyətdən dursuz,
Atifüz yoxdu sizün, mehrü vəfadən ursuz,
Əğlüzi zail sizün çərxi-dəğəlbaz eylədi.

Talibi-zülmatdür xəffaş, Beyzadən qaçar,
Olmasa hər kim təriq əhli o mövladan qaçar,
Yusifi-Misri nə illətdür Züleyxadən qaçar,
Qaçdı, qaçmaqlıq oni bir yari-tənnaz eylədi.

**Zeynəbün oldi, Xudaya, güni yelda gecəsi,**
**Geydi bir tazə gəlin qarə mühənna gecəsi,**

Tazə damadi edüb qanə ədu qəltidə,
Toy otağında ərus oldi qara puşidə,
Hərə bir guşədə ənduhi-ğəmə piçidə,
Belə sübhün keçəcəkdür necə aya gecəsi?

Ali-Peyğəmbərə təng eylədilər dünyani,
Şümrdən aldular möhlət şəbi-tasuani,
Fatimə qızlarınun oldi bülənd əfğani,
Dedilər ol gecəyə "Məhşəri-Kübra" - gecəsi.

Yarü ənsarini şahi-şühəda qıldı xitab,
Bu biyabanda dərya kimi movc eylər ab,
Öldürəllər məni ətşan, buyurub Xətmi-Məab,
Kərbəla vaqiəsün seyr edüb İsra gecəsi.

Hərə öz oğlunu həsrətlə çəküb ağuşə,
Sübh olunca gecəni getmədilər bir huşə,
Gəldi Əbbas üçün hər andə qeyrət cuşə,
Ki haçan sübh olur, bu möhləti-əda gecəsi.

İzni-am odi gedə istəsə hər kim canin,
Qanə labüd boyana, ya ki tökərlər qanin,
Vədə Cananə verüb, can verə Cananə Hüseyn,
Bu gecədür ki, həmin vədənün üqba gecəsi.

Qoymadılar yetirə hərfini itmamə İmam,
Dəstə-dəstə qoyub üz qaçmağa ol firqeyi-xam,
Qıldı xamuş məşəlləri şəhi-Zul-Kiram,
Bəxti tək oldu qəra Zeynəbi-ülya gecəsi.

Xeymələrdə düşüb ətfali-Hüseyn təşvişə,
Əldə üryan qılıc Əbbas gedər gərdişə,
Söylədi: Etməsün heç kim bu gecə əndişə,
Məgər Əbbasuz ölübdür, ola pərva gecəsi?

Etiqadim budu - Meracə Rəsulini Xuda,
Aparıb, sirri varimiş, edə sirri nəcva,
Eyləyüb vaqieyi-Kərbübəlani ilqa,
Bu gecədür ki, həmini vədənün üxra gecəsi.

Yox ümidim, qəsəm ol canuva, səndən qeyri,
Nola qismət ola Beyzayə cəmalun sirri,
Qismət olmasun ona qarə cəhənnəm deyri,
Vay əgər, bu gecə tək gecəsi üfda gecəsi.

# Nə üçün İmam Hüseyn (ə) möcüzə edib düşmənlərini məhv etmədi?

**Uca Tanrının insanları yaratmaqda məqsədi, onları imtahan etmək, sınaqdan əla qiymətlə çıxanları mükafatlandıraraq onlara behişt və əbədi səadəti nəsib etməkdir. Necə ki, Allah-taala Qurani-Kərimdə buyurur:** ***«Tanrı dünyanı və ölümü yaratdı ki, sizi imtahan etsin və hansı birinizin daha yaxşı əməl sahibi olduğunu yoxlasın..» .( Mülk surəsi, 2)***

Təbiidir ki, Tanrı əgər insanları imtahan üçün yaratmışdırsa, onlara haqq və batili, xeyir və şəri, dost və düşməni tanıtdırmış, lakin bunların seçimində insanları azad buraxmışdır. Rəbbimiz bu məsələni Qurani-Kərimdə belə bəyan edir: ***«Biz insanlara düzgün yolu göstərdik, onlar Allaha şükr və ya küfr etsələr də, özləri öz yollarını seçmişlər.» (İnsan surəsi, 3)***

Deməli insan özüdür ki, öz yolunu təyin edir və seçimini seçir. Elə Tanrı bəşəri yaratdığı gündən bəri də işin bu minvalla getməsini istəmiş, insanın öz seçimində tam azad olması üçün bütün qeyri-təbii prosesləri aradan qaldırmışdır. Məsələn, əgər Allah-taala bütün insanların onun göndərdiyi peyğəmbər və imamlara itaət etməsini, Tanrı qarşısında baş əyib ibadət etmələrini məcburi şəkildə də olsa belə ifadə etsəydi, məlumdur ki, bu iş İlahi qüdrəti altında bir an içində baş verərdi. Çünki, Uca Allah hər bir şeyə qadirdir. Amma Allah-taala bu cür etməmiş, insanları ona ibadət və ya küfr etməkdə azad qoymuşdur. Elə bu səbəbə görə də, tarix boyu peyğəmbər və imamların bütün buyurduqlarına əməl edib və əksər hallarda onların kənarında şəhid olanlar da olmuş, onlara qarşı çıxıb qətlə yetirənlər də tapılmışdır. Lakin peyğəmbərlər və imamlar dini kütləvi şəkildə yaymaq üçün nə ardıcıl halda möcüzələrdən istifadə etmiş və nə də öz canlarını qorumaq üçün qeyri-təbii vasitələrə əl atmışlar. Əksinə onlar çox yüksək əxlaqla İlahi dini məntiqi surətdə xalqa çatdırmış və bu yolda hər bir əziyyətə qatlanmışlar. Çox az hallarda xalqın onların İlahi tərəfindən göndərilmələrinə xatircəm olmaları üçün möcüzə göstərir, bu işi yalnız zəruri hallarda Tanrının izni ilə yerinə yetirirdilər. Çünki, Uca Allah möcüzələrin zərurət miqdarını keçdiyi zaman insanların qorxu üzündən dinə üz gətirmələrini bildiyi üçün bu işin onların sınaq məqsədi ilə yaranmasına zidd olduğunu nəzərə alaraq buna icazə vermirdi. Sözsüz ki, əgər İmam Hüseynə (ə) Aşura günü Yezidin qoşununu möcüzə ilə məhv etməyə Tanrı tərəfindən hər hansı bir göstəriş olsaydı, o bu işi görərdi. Amma Allah-taala İmam Hüseynin (ə) təbii şəkildə zalımlara qarşı mübarizə aparmasına və bu yolda şəhid olmasına əmr etdi. Aləmlərin rəbbi, Həzrət Məhəmməd Peyğəmbərin (s) gətirdiyi müqəddəs İslam dininin Bəni-Üməyyənin çirkin əməlləri nəticəsində sarsıldıqdan sonra, İmam Hüseynin (ə) qanı ilə yenidən dirçəlməsini tələb etdi. Və bu yolu bütün bəşəriyyətə örnək qərar verdi. Elə bu səbəbə görə də bəzi rəvayətlərə əsasən, Aşura günü İmam Hüseynə (ə) qeybi qüvvələr tərəfindən kömək təklif olunanda İmam (ə) qəbul etmir. O, təbii olaraq yalnız insanları Tanrı uğrunda düşmənlərə qarşı köməyə çağırıb deyirdi: ***"Bir kəs vardırmı ki, mənə Allah yolunda kömək etsin?"***

(«Əba Əbdullahül Hüseynin həyatı", səh. 114)»



# İmam Hüseyn (ə) qiyamətdə şəfaət edəcək



Böyük ustadlardan biri belə deyir: Bir gün dərs əsnasında şagirdlərdən bəziləri sözlərimə irad tutaraq, İmam Hüseyn əleyhissəlamın qiyamətdə öz əzadarlarına şəfaət edəcəyinə dəlil və sübut gətirməyimi istədilər. Nə qədər dəlil gətirdimsə də, sözümü qəbul etməyib başqa dəlillər tələb etdilər. Çarəsiz qalıb fürsət istədim və bir müddətdən sonra onlara qənaətbəxş cavab verəcəyimə vəd etdim. Məqsədim Kufəyə gedib «Səhlə» məscidində bir müddət ibadət etmək və Allah-taaladan bu sualın cavabını qəlbimə ilham etməsini diləmək idi. Nəcəfi-əşrəfdən Kufəyə tərəf yollandım. Təzəcə yola düşmüşdüm ki, bir nəfər seyyidin mənimlə yanaşı addımladığını gördüm və deyəsən o da Kufəyə gedirdi. Yol boyu həmən seyyid tez-tez suallar verir və sanki mənimlə həmsöhbət olmaq istəyirdi. Qəlbimdə Allahla razi-niyaz etdiyim üçün onun suallarına çox qısa cavab verir, bununla da söhbətdən yayınmaq istəyirdim. Amma bir qədər sonra başa düşdüm ki, bu seyyid həddindən artıq məlumatlı adamdır və ömrümdə eşitmədiyim elmi söhbətlər edir. Seyyid Kufəyə nə üçün getdiyimi soruşdu və mən də əhvalatı olduğu kimi danışdım. O, bir qədər fikirləşdikdən sonra bir əhvalat danışmaq istəyirəm, mümkündür sualının cavabı aydınlaşsın deyə söhbətə başladı:

- Bir gün cavan bir şah öz vəzir-vəkillərini toplayıb ova çıxmaq istədiyini bildirdi. Hamı şahın fikrini bəyənib ov tədarükü görməyə məşğul oldular. Ertəsi gün onlar təbiətin qoynuna çıxıb ov üçün münasib yer axtarmağa başladılar. Şah ətrafındakılara onu, qarşılaşdıqları ilk ovla tək buraxmalarını tapşırdı. Bir qədər sonra yamacında dayandıqları təpənin üstündə bir ceyran gördülər, əmrə əsasən hamı yerində dayandı və şah öz ovunu qovmağa başladı. Günün ikinci yarısınadək şah ceyranın dalınca at qovdu və nəhayət bir də ayılıb gördü ki, hava qaralmağa başlayır, ətrafındakı adamlardan səs-soraq yoxdur, özü də ac-susuz və yorğundur. Nə etməli? Hansı istiqamətə getməli? Harada gecələməli? Bu fikirlərlə bir qədər gəzib-dolandıqdan sonra uzaqdan alaçıqlar görünməyə başladı və şah atını oraya sürüb bir alaçığın qapısında dayandı. Burada yaşlı qadınla bir kişi yaşayırdı. Onlar yorğun atlını görcək tez irəliyə gəlib atın cilovundan yapışdılar, qonağı içəri gətirib ona qulluq etməyə başladılar. Qonaq həddindən artıq ac və taqətsiz olduğundan ona şam hazırlamaq lazım idi. Lakin bu miskin ailənin dünya malından var-yoxları yalnız südü ilə dolandıqları bir keçiləri var idi və yemək hazırlamaq üçün ondan başqa heç bir şeyə gümanları gəlmirdi. Ər-arvad öz aralarında götür-qoy etdikdən sonra kimliyindən xəbərləri olmadığı və lakin Allah qonağı hesab etdikləri bu qəribə qonağa lazımınca xidmət etməyi hər şeydən üstün tutub, yeganə ümidləri olan keçini kəsdilər və ətindən kabab bişirib qonağı yetərincə yedirtdilər. Bütün söhbətləri eşidib, işləri diqqətlə müşahidə edən şah bu yüksək qonaqpərvərliyə, xalislik və insaniyyət tamaşasına baxırmış kimi bu səhnələrdən mənəvi zövq alır, onların sadəliyinə məftun olurdu. Nəhayət səhər açıldı, şahın adamları uzun axtarışdan sonra gəlib onu burada sağ-salamat tapıb çox sevindilər. Şah əmr verdi ki, bu ər-arvadı mənim sarayıma gətirin.

Ertəsi gün sarayda böyük ziyafət təşkil edildi, bütün əyan-əşraf, vəzir-vəkil, münəccim və alimlər orada iştirak edirdi. Məclisin yuxarı başında şahla yanaşı həmin kişi ilə qadın da oturmuşdu. Şah üzünü məclis iştirakçılarına tutub

əhvalatı olduğu kimi danışıb soruşdu:

- Mən bunların yaxşılığının müqabilində nə etməliyəm? Hansı bir iş bunların mənə göstərdikləri xidmətin əvəzini ödəyə bilər? Bir nəfər «yeddi qoyun versən kifayət edər» – deyə dilləndi. Şah qəbul etmədi. İkincisi yetmiş qoyun, üçüncüsü yeddi sürü, kimisi yeddi kənd deyə təklif edirdi, amma şah hər dəfə – «olmadı» deyib başını etirazla yelləyirdi. Nəhayət onlar təəccüblə şahın üzünə baxıb bir söz demədilər. Saray alimi məclisdə toplaşanların təəccübünü izhar etmək üçün dilləndi: Şahım, olmaya bircə keçiyə görə bütün xəzinəni bunlara vermək istəyirsən?!

Şah təmkinlə sözə başlayıb dedi:

- Həqiqəti bilmək istəsəniz, bütöv bir xəzinə də bunların yaxşılığını ödəməz. Çünki, onlar Allah qonağına xidmət etmək üçün hər bir şeylərindən keçiblər. Bunların var-yoxu təkcə bir keçi idi və onu da qurban ediblər və əgər mən də onun əvəzini vermək istəsəm, gərək bütün var-yoxumu və şahlığımı onlara təqdim edim.

Ustad deyir: Seyyid bu əhvalatı danışıb qurtardıqdan sonra söhbətini imam Hüseyn əleyhissəlamla əlaqələndirdi. O, sözlərini davam etdirib buyurdu: Bəşəriyyət içərisində Allah aşiqləri az deyildir. Onların hər biri öz səviyyəsi və eşqi dərəcəsində öz məşuqları yolunda fədakarlıq etmiş və tarixin ən şirin sətirlərini öz qanları ilə yazmışlar. Amma Rəbbimiz bu Böyük Məşuq öz aşiqləri arasında sanki özgə bir şey arayır, Onun yolunda hər bir şeyindən keçməyə hazır olan öz aşiqini görmək istəyir. Bəli, belə bir səadət yalnız imam Hüseynlə (ə) qismət olmuş, bu böyük və ağır imtahandan yalnız o həzrət alnıaçıq və üzüağ çıxmışdır. Allah yolunda malından, canından, əhli-əyalından, keçmişindən, gələcəyindən və ümumiyyətlə hər bir şeyindən keçmiş bu ilahi şəxsiyyət - məsum imam hansı məşəqqətləri görmədi! Dünyada hansı bir dərd-bəla vardır ki, o həzrətin müsibətində onun mütləq nümunəsini tapmayaq!

- Seyyid kövrələrək qəhər içində məndən soruşdu: Allah-taala imam Hüseyndən (ə) Onun yolunda hər bir şeyindən keçməsini istədi və o həzrət də tam xalisliklə bütün varlığını öz Pərvərdigarına təqdim etdi. İndi söylə görüm, Allah-taala da onun bu misilsiz fədakarlığının əvəzini vermək istəsə nə etməlidir?

Ustad deyir: Mən bir anlığa duruxdum, dilimə gətirmək istədiyim sözün məsuliyyətindən qorxub sükut etdim. Seyyid təbəssümlə dilləndi: Bilirəm qorxursan ki, deyəcəyin söz küfr və nasəza olsun. Amma mən deyim: Allah-taala da onun əvəzini vermək istəsə, öz mütləqiyyət və ilahi qüdrətini ona verməlidir. Lakin bu, qeyri-mümkün bir işdir və Allah heç kəsə öz ilahiyyətini verməz. Şəfaət necə? Pərvərdigari-aləm üçün imam




Huseynin (ə) həqiqi möminlərə, öz aşiqlərinə şəfaət izni verməsi çətin bir işdirmi? Allah-taala İmam Hüseyn (ə) üçün şəfaət iznini əsirgəyərmi? Əlbəttə yox!

- Ustad deyir: Mən buradaca dayandım, çünki sualımın cavabını tapmışdım. Seyyidlə xudahafizləşib geri döndüm və sonralar o seyyidin kim olmasını anladım...

Bəli, əzizlərimiz və Hüseyn aşiqləri!

Allah-taala Həzrət İbrahimdən (ə) öz övladını qurbangaha gətirməsini və onu Allah yolunda fəda etməsini istədi. O həzrət də bu əmri qəbul etdi, amma üçüncü əmrdən sonra və özü də yalnız bircə övladını...

Bu müqayisə ilə biz həzrət İbrahim xəlilüllahın məqamını kiçiltmək istəmirik (bizim ruhumuz o həzrətə fəda olsun!), əksinə imam Huseyn əleyhissəlamın məqamının böyüklüyünü çatdırmaq istəyirik. O həzrət öz Məbudu üçün zülm və zalımla mübarizədə, azadlıq və hürriyyət yolunda, İslam dininin inhiraf və azğınlıqlardan qorunması uğrunda öz cavan oğlanlarının tikə-tikə olunmuş bədənlərini əbasının arasına yığıb xeyməgaha gətirdi, gözləri önündə dilavər qardaşlarının necə amansızcasına şəhid edildiyinin, qolları üstə südəmər körpəsinin oxlandığının şahidi oldu! Bu səhnələr o həzrətin aşiqlərini daim yandırıb-yaxmışdır. Lakin bir səhnə daim o haqq aşiqinin ardıcıllarının qəlbini odlayır. İmam (ə) bilirdi ki, şəhadətindən sonra bu vəhşi qoşun onun xeyməgahına hücum çəkəcək, orada olan qız-gəlinlər yanan çadırlardan çıxıb hər tərəfə səpiləcək, atların ayağı altında o tərəf bu tərəfə qaçacaq və əsir götürülərək şəhərbə-şəhər gəzdiriləcək. Görəsən imam Hüseyn (ə) kimi məsum və qeyrətli bir kişini belə bir müsibəti qəbul etməyə nə vadar etdi?! Bu sualın cavabı çox genişdir və bu haqda kitablar yazmaq olar. Lakin qısaca demək lazımdır ki, o həzrət bu ağır və dözülməz müsibətləri qəbul etməklə bəşəriyyətə ən böyük dərsi öyrətdi. Zülmə, düşmənə, təcavüzkarlara qalib gəlmək üçün hər bir şeydən keçməyə hazır olmaq dərsi!

# ŞƏHİD QANI YERDƏ QALMAZ

## *(İki hissədən ibarət mənzum dram)*

**Əziz DƏLİVƏLLİ**

**İştirak edirlər:**
Ana.
Çavuş (Əli).
Dindar.
Zabit.
David.
Cərrah.
Şəfqət bacısı.
Gənc.
Yaralı əskərlər və b..

***(Əvvəli ötən sayımızda)***

(hamı təəccüblə ona baxır)

İnsanı ilk dəfə xəlq edib Tanrı,
Məkana köçürdü bağçalı-bağlı.
Bəxş etdi məxluqa əbədi varlıq,
Vəd etdi verməsin heç zaman darlıq.
Bir ağac bitirdi -- bu başdan, bəri,
Ayırd etmək üçün xeyirlə şəri.
Məxluqat əhlinə göstəriş verdi,
Nəsihət edərək bunları dedi:
"Nəfsini cilovla, iradəli ol,
Çəşməni tox eylə, hövsələni bol.
Dadma ağacdakı meyvədən, barı,
Hədsiz cazibəli olsa da barı.
Uyma fırıldağa, fitnəyə, felə,
Yaradan hökmünə riayət eylə.
Mənimlə saxlasan xoş irtibatı,
Firavan yaşayar bəşər övladı.
Əmrimə naxələf sən çıxsan lakin,
Başqa bir aləmə olarsan sakin.
Hökmümə tabe ol!"- dedi Yaradan,-
"Qəflətən çıxsada şeytan aradan.
Uysan hiyləsinə o cüvəllağın,
Nəslin əhli olmaz cənnəti-bağın.
Ölüm və əbədi həyat arası,
Bu fürsət yeganə seçim olası".
Yaradan əmrinə çıxaraq xain,
Aldanıb Şeytana edildi ayin.
O gün ki, Allaha çıxdı müxənnət,
Yad oldu insana məkani-cənnət.
Tanrının qeyzinə düçar olundu,
Şiddətli təzyiqə məruz qalındl.
Feyziyyab həyatın cıxdı fənası,
Bihudə bu aləm oldu xanası.
Böyükdür rəhimi böyük Allahın,
Olmasa özünün təqsir, günahın
Rəhimkar lüzumsuz iztirab verməz,
Bəndəyə əziyyət heç rəva bilməz.

(Bu zaman bayırda səs-küy qopur, əli silahlı çavuş belində ağır yaralı yoldaşını güclə içəri salır. Əli-ayağı tutan yaralılar ona köməyə gəlirlər)

**Çavuş:** Canı qəlpələrlə onun doludur,
Ən çox zədəlisə bu sağ qoludur.
(Yaralı əskərlər onu ehtiyatla əllərinə götürüb yenicə boşalmış cərrahiyyə masasının üstünə uzadırlar. Şəfqət bacısı skamyada oturan cərraha tərəf gedir. Onun mürgülədiyini görüb ayaq saxlayır)

**Şəfqət bacısı:** (öz-özünə)
Binəva yuxusuz olubdur bimar.

**Cərrah:** (gözlərini yavaş-yavaş açaraq)
Yenə də cəbhədən yaralımı var?

**Çavuş:** (darıxmış halda, titrək səslə cərraha)
Bilirəm, ay həkim, bikefsən nədən,
Yuxusuz usanıb düşübsən əldən.
Baxma əhvalına, aman günüdür,
Rəhm eylə, naçarın yaman günüdür.
Çarə bul, bu cavan nakam getməsin,
Anası ağlayıb fəğan etməsin.

**Cərrah:** (ağır-ağır yerindən qalxaraq)
Əcaib ricadır, çavuş, farağat!
Özünü ələ al, olma narahat.
Vətəndaş borcumdur, vücudu bizar
Olsa da yaraşmaz həkimə ah-zar.
Rəzillik etmərəm düşmənə belə,
Buna imkan verməz vicdanım hələ.
Öncə qorunmalı həkimin adı,
Əbəs içməmişəm Hipokrat andı.
Xəstədən gizlətməz həkim biləni,
Çalışıb edərəm əldən gələni.

(Cərrah qollarını dirsəyinə qədər çırmalayaraq cərrahiyə əməliyyatına başlamaq istəyir. Bu zaman yaralını əməliyyata hazırlayan şəfqət bacısı qışqırır)

**Şəfqət bacısı:** İlahi, yağıdır naməhrəm kişi,
Götürün masadan bu neybət leşi.

**Cərrah:** (ona yaxınlaşaraq zarafatla)
Nadir, nə salıbsan çığır-bağırtı,
Az qala qorxudan bağrım yarıldı.

**Şəfqət bacısı:** (həyacanla)
Döşündə xaçı var napak kafirin...
**Çavuş:** (rişxəndlə şəfqət bacısına)
Güclüdü diqqətin, sənə afərin,
Amma bu xaçpərəst deyildir yağı,
Gürcüdür, sinədə doludur dağı.
Xalqımın dərdindən düşübdür oda,
Bizimtək xiffətli, qəmlidir o da.

(Cibindən siqaret çıxarıb yandırır. Dalbadal dərindən nəfəs alır)

**Cərrah:** Durmayın, tərpənin, cəld olun bir az,
Çoxlu qan itirib, ləngimək olmaz.

(Həkimlər əməliyyata başlayırlar. Çavuş zabitə əhvalatı danışır)



**Çavuş:** Tiflisin köbəyi qədim Meydanda
Göz açdıq həyata bir gün, bir anda.
Davudun anası Lamara xala
Uşağı doğarkən gəlməmiş hala,
Dərhal naxoş düşdü, süddən kəsildi,
Xəstəlik körpəyə qənim kəsildi.
Durumu zor idi, nə etsin ana,
Yox idi əzizi qəminə yana,
Yox idi yetimin bacı-qardaşı,
Aciz əlil idi həyat yoldaşı.
Yoxsulluq, xəstəlik keçdi həddini,
Yox idi yaxını bölə dərdini.
Körpəni öz anam basdı bağrına,
İsitdi oğlutək, süd verdi ona.
Anamın qoynunda o, lövbər saldı,
Südünü əmərək iyini aldı.
O gündən, o andan biz qardaş olduq,
Qaynayıb qarışdıq, dost, sirdaş olduq.
Yelləndik nənnidə ikimiz birgə,
Anamız ayrıca doğmuşdu bircə.
Böyüdük çox halal, nay hallı, pürfənd,
Bilmədən bir hiylə, bir hikkə, bir fənd.
Dar gündə, çətində müttəfiq olduq,
Mehriban yaşadıq, çox mətin durduq.
Bilmədik ədavət, ixtilaf, qovğa,
Etmədik təkəbbür, olmadıq lovğa.
Təfavüd görmədik millət arası,
Bu hala bədniyyət oldu yanası.
Nifaq teşnəli kəs nifrət qazandı,
Təfriqə nəfslilər tamam azaldı.
Napak qonşuları sandıq biz əsfəl,
Pakları başlara zənn etdik əfsər.
Qayğısız, fikirsiz, çoşğun gənc idik,
Bir kimsə demədi sizdən incidik.
Hərdənbir məktəbdən, dərsdən qaçardıq,
Nəbatat bağında işrət açardıq.
Saymazdıq nə boran, nə yağış, nə qış,
Gəzərdik Meydanı biz qarış-qarış.
Uca zirvəsindən Narınqalanın
Qədim məhəllənin -- Ortacalanın
Seyrinə dalardıq, nəzər salardıq,
Gözəl mənzərəyə heyran qalardıq.
Baxardıq aşağı, dönmüş abada,
Hamamlar məskəni Seyidabada.
Unudub atardıq dərdi, azarı,
Seyr edib gəzəndə Seytanbazarı.
Fətəli qəbrini, Vazeh qəbrini
Ziyarət edərdik günün hər günü.
Dahi ədibləri yada salardıq,
Məzarı önündə fikrə dalardıq.
O bağın füsünkar gözəlliyindən
O cənnət diyarın özəlliyindən
Ayrılıb gedərdik məscidə sarı,
Enməmiş məbədə yolu tən yarı
Məscidin möhtərəm xadimi Rasim,
Mərhəmət sahibi, xassəsi asim.
Uşaqtək qarşılar, qanad açardı,
Yasaq dərbəçəni geniş açardı.
Saymayıb rejimin qadağasını,
Kəsməzdi o Hatəm sadağasını.
Bəzən mömin kəslər erkən durardı,
Xəlvətcə məbəddə namaz qılardı.
Hər dəfə bir dini bayram yaxını
Gələrdi buraya dindar axını.
Məhərrəm ayında aşura günü ,
Ərşə dirənərdi millətin ünü
Anıb ağlayarkən imam Hüseyni,
Hər il təkrar olar bu matəm eyni.
Heç məhəl qoymadan vaxta, vədəyə,
Qoruduq, baxmadıq qorxu, hədəyə.
Ad dinlər içində biz din saxladıq,
Yad dillər içində saf dil saxladıq.
Bu gürcü David də yanımda durdu,
Bizimlə həmavaz, həmahəng oldu.
Olmadıq heç zaman acgöz, tamarzı,
Tən böldük biz çoxu, tən böldük azı.
Cığırdan sapmadıq, yolu düz getdik,
Hərdən ərköyünlük, şıltaqlıq etdik.
Adamlar dözdülər biztək şuluğa,
Beləcə yetişdik həddi-büluğa.
Təzə bitirmişdik orta məktəbi,
Unutduq xoş niyyət, arzu-mətləbi
Düşəndə bir günə Azərbaycanım,
Dözmədi ürəyim, sızladı canım.
Vətənin dar günü cəbhəyə gedən
Biri də mən oldum könüllülərdən.
David də sarsıldı ahu zarıma,
Tənəzzül ruhuma, məyus halıma.
Qoymadı dar gündə mən yalqız qalam,
Yağıdan intiqam gedib tək alam.
Xalqımın hayına-havarına o,
Heybətli haləti, zavalına o,
Olmadı biganə, qalmadı laqeyd,
O ürək təpəri etməliyəm qeyd.
Davidin ürəyi qəzəblə doldu,
Bizim igidlərə o yoldaş oldu.
Bir horu düşünüb heç həsləmədən,
Atıldı cəbhəyə can bəsləmədən.
Şücaət göstərdi, mətin döyüşdü,
Çoxlu qan itirib taqətdən düşdü.
Özü də bilmədən dəstədən qaldı,
Düşmən bunu görüb araya aldı.
Düşmək istəməyib yağı əlinə,
Əlini ataraq kəmər yerinə
Qumbara çıxarıb halqanı dartdı,
Düşmənin sıx olan yerinə atdı.
Dağıldı qorxudan hərə bir yana,
Mən dönüb özümü çatdırdım ona.
Sağ qalan hövləki tez aralandı,
Davidin özü də bərk yaralandı.
Qana bələnmişdi siri-sifəti,
Sağlam yer yox idi canında qəti.
Dəstəmiz özünü alaraq ələ
Yağının üstünə eylədi həmlə.
Durmadan özümü ona yetirdim,
Davidi götürüb bura gətirdim.

**Zabit:** (xəyalən Davidə müraciətlə)
Afərin, afərin, ey igid oğul,
Bu cəsur hərəkət bir dastan, nağıl.
Əmdiyin o saf süd qoy olsun halal,
Unut əzabları, tezliklə sağal.

**Cərrah:** (onlara yaxınlaşaraq şəfqət bacısına müraciətlə)
Sən də deyirdin ki, o bir kafirdir,
Elə naməhrəmdir, elə kifirdir.

**Çavuş:** Ay həkim, amandı, vermə iztirab,
Qalmadı canımda nə taqət, nə tab.
Olma müəmmalı, danışma ilğaz,
Bu qədər nə səbir, nə dözüm olmaz.
Varmı, de, dərdinə bir dərman, dava,
Ümid qalıbdımı, yoxsa binava...

**Cərrah:** Zədə yox həyati mühüm üzvlərdə,
Qəlpələrin çoxu qalıb üzərdə.
Nə qədər çoxdursa onun yarası,
Fəqət, yaşayacaq gürcü balası.

*(Səhnədə bir canlanma hiss olunur, cöhrələrdəki qəm-qüssə təbəssümlə əvəz olunur. Hamı bir-birini təbrik edir. Çavuş sevincindən yaxınlığındakı adamları qucaqlayıb öpür)*
**Çavuş**:*(sevincək həkimə)*
Çox sağ ol, ay həkim, dilinə qurban,
Qaytardın həyata, əlinə qurban.

*(Yana çevrilib dəsmalla göz yaşlarını silir)*

**Cərrah:**Yəqin namaz üstə olubdu ana,
Çağırıb Allahı, yalvarıb ona.

*(Bu zaman atəş və partlayış səsləri eşidilir)*

**Çavuş:**(silahını əlinə alaraq)
De, haydı cəbhəyə, sonra görüşək.

**Şəfqət bacısı:** Tələsmə, sevinci birgə bölüşək.

**Çavuş:**Vətənim "Olum, ya ölüm"seçimdə,
Rəvamı yaşamaq rövnəq içində?

*(deyib getmək istəyir)*

**Zabit:** (onun ardınca)
İsmini bağışla, ey cəsur əskər!

**Çavuş:** Düşərsə yolunuz Tiflisə əgər,
Yad edin Meydanı, Güllü hamamı -
Orada Əlini tanıyır hamı.
Hələlik, əlvida, olmamış talan,
Vətəni qurtaraq biz istiladan.
Gərəkdir həll edək bu iltibası,
İllətin olmalı bir intəhası.

*(deyərək səhnədən çıxır)*

**Zabit:** *(onun arxasınca)*
Əhsən hünərinə, ey türk balası,
Oğul dəliqanlı, coşğun olası.

**Dindar:** Ömrün uzun olsun, adınla qoşa
Məsum Əli təki şərəflə yaşa.

**Zabit:** Belə türk əskəri çox olsun, Allah,
Onda yağıların durumuna bax!
Yağılar üstünə yerisək belə
Onların canına düşər vəlvələ.
Haydı igidlərim, götürək silah,
Bu işdə yar olsun qoy bizə Allah.

*(deyərək avtomatı götürüb cavuşun ardınca gedir)*

**Digər əskərlər:**
Haydı, igid ərlər, dardadır Vətən,
Ona göz dikibdir hər yoldan ötən.
*(deyib onların ardınca səhnədən çıxırlar. Marş sədaları uzaqdan eşidilən atəş səslərinə qarışır. Səhnə qaranlıqlaşır, pərdə yavaş-yavaş enir).*

## İKİNCİ HİSSƏ

Həzin musiqi sədaları altında pərdə açılır. Aradan 12-10 il keçib. Şəhidlər xiyabanı. Qara mərmər baş daşlarının üstündə şəhidlərin şəkilləri. Baş daşının birində Əlinin, Zabitin və başqalarının şəkilləri var. Dindar molla libasında bir tərəfdə durub Quran oxuyur. Səhnənin digər tərəfindən üzü-gözü çapıq-çapıq, sağ qolu kəsik David sol əli ilə 55-60 yaşlarında başı kəlağayılı qadının qolundan tutub, onların ardınca qara paltarlı bir qadın Xiyabana daxil olurlar. Arxadan gələn qadının qucağında bir dəstə gül var. O, məzarların üzərinə çiçək qoya-qoya gedir. Qalan gülləri Əlinin qəbri üstünə düzür.

**Ana:** *(Əlinin məzarını qucaqlayaraq bayatı deyir)*
**Məzar bağçalı-bağlı,**
**Meylim oğula bağlı,**
**Ağlar ana görsəniz**
**Mənəm, sinəsi dağlı.**

Aləmi xəlq edən rəhimli Rəbbim,
Niyə kobudlaşdı bu həlim təbim,
Bu lətif qəlbimi etdin sərt, kobud,
Dəyişdim, naçarən, məcburi, labüd.
Ömrümdə bir dəfə eyləmədim dad,
Tək səndən, tək səndən dilərdim imdad.
Lahüt aləmimi etdin imansız,
Sinnimin bu çağı qoydun gümansız.
Sən idin ümidim, səndin pənahım,
İndi dərgahına çatıbdır ahım.
Hey zildən gedərdim, pəsə endirdin,
Matəm libasını niyə geydirdin?
Sındı qol-qanadım, doğrandı beçəm.
Mənə zülmət oldu gündüzüm, gecəm.

**Aş yedim, dilim yandı,**
**Bağçada gülüm yandı,**
**Balam şəhid olubdur,**
**Alışdı külüm yandı.**

Bu dərdə bəs necə dözsün analar,
Qövr edir sinəmdə çarpaz yaralar.
Qəlbimə təlatüm salıbsan, oğul,
Sənsizlik cismimdə iztirab doğur.

**Qarşıda qara dağlar.**
**Bürünüb qara dağlar,**
**Vaxtsız bala ölümü**
**Sinəmi yaman dağlar.**

O daşdan boylanan nigaran baxış,-
Vətənin qəsbindən tapdıqmı çıxış?
Və yaxud axan qan hədərmi oldu,
Şəhidlər havayı gedərmi oldu?-
Sanki soruşaraq baxır gözümə.
Necə bağışlayım bunu özümə?
Vətəni hərraca qoydu harınlar,
Gözü ac, azvərlər, yekə qarınlar.
Düşmən baltasına sap olan namərd
Düşmənin özündən betərdi fəqət.
Smbatlar Babəki satanda susduq,
Şaumyan aranı qatanda susduq.
Ulu yurd adları dəyişdi, susduq,
Muxtariyyat aldı, nə işdi, susduq.
Taleni cızardı hökmdar olan,
Kim idi biz fəqir kütlədən soran.



**Vətən dağımdır mənim,**
**Qəm oylağımdır mənim.**
**Dindirmə qəm ağlaram,**
**Yaman çağımdır mənim.**

Mövcudsuz halına necə tablaşım,
Qalmadı gözümdə bir damla yaşım.
Ananın bu qoca, bu möhtacçağı
Söndürdün çırağı, yanan ocağı.

**David:** O evin çırağı sönməyib, ana.
Nuru işıq verir oğlunun ona.
Şəhidin tökülən bir damla qanı
Görər öz işini – gələr zamanı.
Ölüm ki, əbədi yox olmaq deyil,
Qüdsiyyət aləmi bax belə deyir: -
Bihudə dünyadan haqq aləminə
Ruh pərvaz edəcək həyat naminə.
Bu dünya-axirət həyat arası
Ölüm bir sadəcə körpü olası,
Qiyamət günədək əbədi varlıq
Saf həyat sürübsə heç çəkməz darlıq.

**Dindar:** Bu dəhli-dünyadan şəhid gedənlər.
Ömrünü xalqına fəda edənlər
Müqəddəs sayılar, daım sanılar,
Tarixdə əbədi adı anılar.
Onların ölümü həyatlarıtək
Gələn nəsillərə olacaq örnək.
Müsəlman dininin əqidəsincə,
Günəş parladıqca, külək əsincə
Adları dillərdə hər an qalacaq.
Ruhları Behiştdə daim olacaq.

**David:** Sənələr ötüşüb illər keçəcək,
Sərt sazaq yox olub, bahar gələcək,
O Sənan dağından qədim Meydana
Günəş şüasını saçıb hər yana,
Yayılıb bu yurda şölə saçacaq.
Fədai Əlini hamı anacaq.

**Dindar:** Bax onda ananın dilindən qopan,
Ürəklər yandıran, qəlblərə hopan
O niskil bayatı, acı, ağılar
Küləyə qovuşub el-el dağılar.
Çatar misra-misra, ellər dolaşar,
Türkün bərəsini, bəndini aşar.
O zaman türk eli tapar intibah,
Onda düşmənlərin durumuna bax.

**Ana:** Bu dərdli ananın sözü, balalar,
Bilin həqiqətdən heç uzaq olmaz.
Hələlik torpaqlar yad əllərdədir,
Amma şəhid qanı heç yerdə qalmaz.

*(Səhnəyə sükut çökür. Pərdə yavaş-yavaş örtülür).*

# *Muris Dukberi Kərbəla hadisəsi barəsində yazır:*

Əgər tarixçilərimiz həqiqətən bu günün Aşura gününün hansı gün olduğunu dərk etsəydilər, bu əzadarlığı dəlilik kimi qiymətləndirməzdilər. İmam Hüseynin tərəfdarları bu əzadarlıqda başa düşürlər ki, gərək işğalçı və istismarçıların zillət və xarlığını qəbul etməsinlər, çünki onların rəhbərlərinin şüarı zülmə tabe olmamaq idi. İmam Hüseynin (ə) əzadarlığı məclisində hansı həyat bəxş edən mətləblər söylənildiyinə diqqət edək! İmam Hüseynin (ə) əzadarlığı məclisində, imam Hüseynin (ə) camaatın şərəf və namusunu və islamın məqam və dərəcəsini qorumaq üçün öz can, mal və övladlarından keçdi və istismarçı və hoqqabaz Yezidə tabe olmadı. Elə isə gəlin biz də onun yolunu nümunə seçməklə istismarçıların köləliyindən azad olaq, izzətli ölümü zillətlə yaşamaqdan üstün bilək, çünki şərafət və izzətli ölüm zillətli yaşamaqdan yaxşıdır. Beşikdən qəbrə qədər bu cür təlimləri olan bir millətin məqam və dərəcəsi məlumdur. Belə bir millət şərafətli və iftixarlıdır və bütünlüklə izzət və şərafətin həqiqi əsgərləridirlər. Təbii təsirləri olan siyasi faydalarından başqa, müsəlmanlar bu əməliyyatda (imam Hüseyn (ə) əzadarlığında) böyük axirət savabı görürlər. Tarixdən xəbərdar olanlar bunu təsdiq edərlər ki, bu gün bəlkə bütün əsrlər boyu orta Asiya xalqları arasında əxlaqın və beynəlxalq təlimlərin islahı dindən başqa bir vasitəylə mümkün deyil. Əxlaqla təchiz olan bir cəmiyyət, Asiya xalqlarının birliyi və vətənsevərliyi, din və dindarlıq vasitəsilə əldə etdiyini çox yaxşı başa düşür. Bu günlərdə Amerika Birləşmiş ştatlarında camaatı vətənə xidmət etməyə çağırırlar, halbuki Asiyada din və məzhəb adı ilə çoxlu sayda xidmətlər olunur. Əgər müsəlmanlar vətənsevərliyi adı ilə siyasi tərəqqilər əldə etmək istəsələr, xeyir əvəzinə ziyan edərlər. Çünki əgər əsgərlik təlimləri dinlə bağlı olsa, əsgərlər nə qədər ki, canlarında qan var müqəddəs vətənin bir qarışını belə yadlara təslim etməzlər. Əgər bu gün müsəlmanların müstəqilliyini müşahidə ediriksə, bunun əsl səbəbi Quranın və islamın əmrlərinə tabe olmaqdır və bir gün gələcək ki, müsəlmanların bu tabeçiliyin sayəsində qüvvətlənəcəyini və isalmın əvvəl günlərində olduğu kimi onların birliy və həmrəyliyinin sayəsində dünyanın şərq və qərb ölkələrini özlərinə tabe edəcəklərini görəcəyik. İmam Hüseyn (ə) həzrət İsaya (ə) ən çox oxşayan ruhanidir, amma onun müsibətləri daha çətin və şiddətlidir.

## *Tomas Masarik*

*Bir çox tarixçilərimiz bu adətin kəmiyyət və keyfiyyətini və əzadarlığın geniş yayılmasını bilmədikləri üçün cahilcəsinə danışırlar. İmam Hüseynin (ə) tərəfdarlarının əzadarlığını dəlilik kimi qiymətləndirirlər. Onlar heç vaxt bu məsələnin İslamda hansı dəyişikliklər etdiyini və bu məzhəbdən başqa dünyanın heç bir millət və məzhəbində olmayan məzhəbi qiyam və hərkatı əzadarlığın nəticəsində yaranmasını başa düşməyiblər. Əgər Hindistanda yaşayan, əzadarlığı özlərinə şüar etmiş həzrət Əlinin (ə) tərəfdarlarının iki yüz illik tərəqqisinə diqqət etsək, təsdiq edərik ki, əsl məziyyətə onlar tabe olurlar. İki yüz il bundan qabaq Hindistanda və başqa ölkələrdə imam Əli (ə) və imam Hüseynin (ə) tərəfdarları azlıq təşkil edirdi. Əgər bu gün inkişaf etmiş və dövlətli xristian ölkələri milyonlar dollar xərcləsələr belə yenə bu cür matəm və əzadarlıq keçirə bilməzlər. Düzdür ki, keşişlərimiz həzrət İsanın (ə) müsibətlərini xatırlatmaqla camaata təsir edirlər, amma İsanın (ə) tərəfdarlarında olan şövq və həyəcan imam Hüseynin (ə) tərəfdarlarında olan şövq və həyəcan kimi olmayacaq. İsanın müsibətləri imam Hüseynin müsibətləri ilə müqayisədə əzəmətli bir dağın qarşısındakı bir saman çöpü kimidir.*

# BİRCƏ ŞAMLA İSİDİLƏN HAMAMIN SİRRİ

***Yəqin ki, çoxunuz İranın İsfahan şəhərində yerləşən və uzun müddət boyunca bir şamın hesabına isidilən hamam haqqında eşitmisiniz. Bu hamamın suyu bircə şamın istiliyi hesabına qızırmış. Hamamın layihəsinin müəllifi və memarı XVII əsrin ən məşhur din xadimlərindən biri, ensiklopedik bilikli alim Şeyx Bəhaidir.***

Şeyx Bəhai ləqəbli Bəhaüddin Mühəmməd Amuli fiqh, hədis, təfsir, kəlam, əqaid kimi sırf dini elmlərlə yanaşı, həm də dünyəvi elmlər sahəsində misilsiz məharət sahibi idi. Onun hesab, həndəsə, astronomiya, coğrafiya mövzusunda dəyərli araşdırmaları vardır. Şeyx Bəhai istedadlı şair idi, həm ərəb, həm də fars dilində dini-irfani məzmunlu şeirlər yazırdı. O, qəraib elmlərin (metafizika) də bilicisi idi. Bütün bunlardan əlavə, Şeyx Bəhai həm də nüfuzlu dövlət xadimi və Səfəvi hökmdarı Şah Abbasın sevimli vəziri olmuşdur.

Şeyx Bəhainin bu gün də dünyanı heyrətdə qoyan ixtiraları çox olub. Nümunə üçün İsfahan ətrafında tikdirdiyi və indi də öz funksiyasını qoruyub-saxlamaqda olan “yellənən minarələr”i göstərmək olar. Alimə böyük şöhrət gətirən və haqqında əfsanələr danışılan daha bir əsəri isə bir şam ilə isidilən hamamdır.

Hamam İsfahan şəhərinin qədim Came məscidindən cənubda, Nizamül-mülk günbəzindən yüz metr məsafədə, Dərdəst məhəlləsində yerləşir. Hamamın yaxınlığında Şeyx Bəhainin təşəbbüsü ilə tikilmiş əssarxanə (yağ istehsal edilən emalatxana) yerləşir. Burada müxtəlif məqsədlər



üçün, o cümlədən yanacaq kimi işlədilən yağ emal edilirdi.

Adı çəkilən hamamın taleyi faciəvi olmuşdur. Bəzi məlumatlara görə, hamamın işləmə qaydasını öyrənməyə çalışan əcnəbi qüvvələr onun zirzəmisini sökmüş və isitmə mexanizmini çıxarıb İngiltərəyə aparmışlar. Bunun nəticəsində hamamın isitmə sistemi sıradan çıxmışdır. Bu hadisə İranda Zəndilər sülaləsinin hakimiyyətinin sonlarına (1790-cı illər) təsadüf etmişdir. Hamamın sökülməsi haqqında “əl-Həbl” adlı nadir əlyazmada məlumat verilir ki, onun London, Berlin və İstanbul kitabxanalarında saxlanılan cəmi üç nüsxəsi mövcuddur.



Deyilənlərə görə, Şeyx Bəhai özü deyibmiş ki, əgər mənim vəfatımdan sonra hamamın zirzəmisini açıb su anbarını söksələr, orada yanan şam sönəcək və hamam bir daha əvvəlki qayda ilə işləməyəcək. Görünür, Şeyx fəzanın hermetikliyinin pozulacağını nəzərdə tutaraq bunu söyləyibmiş.

Qeyd etmək yerinə düşər ki, bir çox mənbələr və xalq yaddaşındakı məlumatlar hamamın Şeyx Bəhai tərəfindən layihələndirildiyini vurğulasa da, bunu şübhə altına salan məqamlar da var. Məsələn, hamamın giriş qapısı üzərindəki kaşı kitabədə tikinti tarixini əbcəd hesabı ilə ifadə edən şeir (maddeyi-tarix) həkk edilib. Alimlərin bir qismi kitabədəki yazını hesablayaraq hicri-qəməri təqvimilə 1065-ci il (miladi 1655) almışlar ki, bu da Şeyx Bəhainin vəfat tarixindən 35 il sonraya aiddir. Lakin tədqiqatçıların başqa bir qrupu həmin maddeyi-tarixi fərqli qayda üzrə hesablayaraq hicri-qəməri 1025-ci ili alırlar ki, bu da Şeyx Bəhainin vəfatından 5 il əvvələ təsadüf edir. İkinci hesabat daha dəqiq və inandırıcı görünür.

Bəs, bu sirli hamam necə işləyirdi? Su bircə şamın köməyi ilə necə qızırdı? Tarix boyunca bu istiqamətdə müxtəlif fərziyyələr irəli sürülüb. Hətta Şeyx Bəhainin atom enerjisindən xəbərdar olması və hamamın isitmə sistemini bunun əsasında qurması da iddia edilib. Xalq arasında yaranmış təsəvvürə görə, Şeyx Bəhai guya hamamın su anbarının (buna xəznə deyirlər) altında adi bir şam qoyubmuş və bu şam gecə-gündüz yanaraq, bütün xəznədəki suyu qızdırırmış. Əlbəttə, məsələ heç də bu qədər primitiv deyil. Hamamda fiziki və kimyəvi qanunlar əsasında fəaliyyət göstərən çox mürəkkəb bir sistem qurulubmuş. Sadəcə olaraq, o zamanlar adi insanlar bunu anlaya bilmədiklərindən, bu cür əfsanələr yaranıb.

Alimlərin araşdırmaları nəticəsində hamamın fəaliyyət mex-

anizminin sirri demək olar ki, tamamilə açılıb. Şeyx Bəhai suyu isitmək üçün nə adi şamın istiliyindən, nə də atom enerjisindən deyil, yanar qazlardan istifadə edibmiş. Belə ki, yaxınlıqda yerləşən came məscidinin təharətxanasında işlənən su və axıntılar yeraltı zirzəmiyə tökülürdü. Burada təbii proses nəticəsində tullantılardan metan qazı və kükürd oksidi ayrılırdı. Həmin qazlar saxsı borular vasitəsilə hamamın altındakı xüsusi fəzaya nəql edilir və burada yandırılırdı. Hətta deyilənlərə görə, nəinki yalnız came məscidinin, bütünlükdə İsfahan şəhərinin kanalizasiya sistemində ayrılan qazlar bura yönəldilibmiş. Hamamın yaxınlığında yerləşən əssarxanənin fəaliyyəti nəticəsində yaranan qazları da bura əlavə etsək, xeyli miqdarda yanacaq məhsulu alınar ki, bu da hamamın suyunun isidilməsi üçün kifayət edər.

Bu fərziyyənin doğruluğu başqa yollarla da sübuta yetir. Hamamın yaxınlığında yerləşən Şeyx Bəhainin evində aparılmış qazıntılar zamanı saxsı boru qırıntıları, təcrübə şüşələri (kolbalar) aşkara çıxmışdır ki, bunların alim tərəfindən hamam layihəsində işlədildiyi ehtimal edilir. Üstəlik, hamamın isitmə kamerasının (bu, küp şəklində imiş) dibində heç bir yanacaq tullantısı (kömür ya köz izi) aşkar edilməmişdi. Bütün bunlar hamamın məhz yanar qazlar hesabına işlədiyini söyləməyə əsas verir.

Qeyd etmək yerinə düşər ki, Şeyx Bəhainin layihəsi əsasında tikilmiş hamamın bənzərini (surətini) artıq bir neçə ildir ki, İranda hazırlayıblar. Xorasanda fəaliyyət göstərən İxtiraçılar qurumunun rəhbəri Əli Əsğər Berəhmənd həm quruluş, həm də iş prinsipi baxımından Şeyx Bəhai hamamı ilə eyni olan hamam binasını tikmişdir. Fərq bundadır ki, Şeyx Bəhai qazanxananı və suyu ötürən boruları qızıldan hazırlamışdı, yeni hamamda isə qızıl mislə əvəz olunmuşdur. Məlumdur ki, metalların içində qızıl ən yüksək istilik keçirmə qabiliyyətinə malikdir. Qızılı müəyyən dərəcəyə kimi isitmək üçün başqa materiala nisbətən dəfələrlə az yanacaq və enerji kifayət edir.

Layihənin rəhbəri Berəhmənd Şeyx Bəhainin layihəsi əsasında tikilmiş hamamın niyə dünyada yeganə olmasını, niyə Şeyxin buna bənzər ikinci hamam tikmədiyini və hamamın iş mexanizmini niyə hamıdan gizli saxlamasını da bununla bağlayır. Hamamın tikilişində külli miqdarda qızıldan istifadə olunduğu üçün ikinci dəfə bu qədər xərci çəkmək çətin idi. Həm də alim ehtiyat edirdi ki, oğrular və fırıldaqçılar hamam borularının qızıldan olduğunu bilsələr, onu sökməyə cəhd edərlər. Buna görə Şeyx öz ixtirasının sirrini heç kimə açmırdı.

Şeyx Bəhai hamamının surəti olaraq tikilmiş yeni hamam layihəsi 2006-cı ildə İsveçdə, 2007-ci ildə Moskvada keçirilmiş müsabiqələrdə qızıl medala layiq görülmüşdür.

Şeyx Bəhai hamamının özü isə uzun illər boyunca təyinatı üzrə istifadə edilmədiyindən dağılmaq üzrədir. Son illərdə hamamda təmir və bərpa işləri gedir.

# Nə üçün İmam Hüseynin (ə) qəbrini ziyarət etməyə - Kərbəlaya gedirik? Bu ziyarətin faydası nədir?

**Həzrət İmam Hüseynin qəbrini ziyarət etməyin özünə məxsus fəlsəfəsi vardır. Onlardan bir neçəsinə işarə edirik:**

*1- Bildiyimiz kimi Əhli-beytə (ə) olan sevgi və məhəbbət Qurani-Kərimdə vacib sayılmışdır (Şura surəsi, ayə 23). Bundan əlavə əziz Peyğəmbərimizin (s) «Hər kəs Hüseyni (ə) sevsə məni sevmiş olur, məni sevən isə Allahı sevmiş olur. («Möcəmül-kəbir», c. 22, səh. 274; "Kənzül-ümmal», c. 13, səh. 662)» Və buna oxşar buyruqları bizə onun sevgisini vacib edir. Bizi onun ziyarətinə aparan yol, eşqin yolu və İmam Hüseynə (ə) bəslədiyimiz ülvi məhəbbətdir.*

2- Allah dostlarını unutmamaq, İlahi şüarlarını daim yaşatmaq hər bir müsəlmanın borcudur. Necə ki, Qurani-Kərim buyurur: «Hər kəs İlahi şüarlarını dirçəltsə şübhəsiz ki, bu qəlblərin və onun qəlbinin təqvasından xəbər verir.» ( Şüəra surəsi, ayə 23)

İmam Hüseynin (ə) qəbri də, Allah yolunda fədakarlıq, şəhadət və izzət simvolu olaraq, müsəlmanların ziyarətgahına çevrilmişdir.

*3- Müsəlmanlar Allah yolunda şəhid olmuş, din uğrunda özünü qurban vermiş İmam Hüseynin (ə) ziyarətinə gedərək onu Allaha vasitə qərar verir, dua və istəklərinin qəbul edilməsində yardım etməsini diləyirlər.*

*Bu günə kimi, müqəddəs Kərbəlada minlərlə insan şəfa tapmış və neçə-neçə çətinliklərlə üzləşmiş şəxslərin müşkülləri həll olmuşdur. Belə ki, Qurani-Kərim də duanın tezliklə qəbul olunması üçün Allah yanında məxsus hörməti olan şəxsləri,vasitə etməyi məsləhət görmüşdür. Necə ki, Maidə surəsi, 35-ci ayədə buyurulur: «Allaha yaxınlaşmaq üçün vasitə axtarın.»*

4- İmam Hüseynin (ə) qəbrini ziyarət edərkən qəlbimiz kövrəlir, səmavi hisslərlə dolur, və etdiyimiz bir çox pis əməllərimizə görə peşman oluruq. Allahın sevimli dostlarının ziyarətinə gəldiyimizi düşündükdə, bu müqəddəs yerin paklığı bizi düşünməyə və tövbə etməyə vadar edərək, sanki çirkinliklərdən yuyub təmizləyir. Xoş duyğular, səmavi hisslər insana hakim kəsilir. Müqəddəs məkanın səfa dolu ab-havası bizi mərhəmətli, xeyirxah olmağa çağırır. Belə ki, Kərbəla ziyarətinə gedib bəd əməllərinə, keçmiş səhvlərinə utanıb, tövbə etməyən bir müsəlman tapmaq çox çətindir. Həzrət İmam Hüseyn (ə) kimi dəyərli şəxsiyyətin məzarını ziyarət etdiyimiz üçün daim öz əməllərimizə fikir verməyə, ona layiq hərəkətlər etməyə çalışırıq. Başqa sözlə desək, Kərbəla ziyarəti həyatımızda Allaha dönüş nöqtəsi olaraq «hidayət edici» rolunu oynayır.

Bir an təsəvvür edin ki, düzgün hərəkət etmədiyimiz zaman bizə, «sən Kərbəlayisən, bu sənə yaraşmaz!»-deyə müraciət olunur. Biz isə əməlimiz barəsində düşünür çox vaxt nöqsanlarımızı anlayır, ən azı bir anda olsa inadı buraxaraq işimizin doğru olub-olmadığı barədə tərəddüd edirik.

Misirli əhli-sünnə alim Abbas Mahmud Əqqad bu barədə yazır: ***«Kərbəla müsəlmanlar üçün ibrət və qayıdış (tövbə) məkanı, qeyri-müsəlmanlar üçün isə adi səyahət yeridir. Amma əsl həqiqətdə belə müqəddəs torpaq mənəviyyatdan azca anlayışı olan hər insan övladının ziyarətgahına və onunla bərabər tövbə məkanına çevrilməlidir.»***

(Mahmud Əqqad, «Əbüş-şəhid», səh 144.)



# KƏBƏ

## HAQQINDA BUNLARI BİLİRSİNİZMİ?

***Kəbə ərəbcə “əl-Kəb”(الكعب) sözündən götürülüb mənası “kub” deməkdir. Kəbənin şimal-şərq divarının eni 12,63 m, şimal-qərb divarının eni 11,03 m, cənub-qərb divarının eni 13,10 m, cənub-şərq divarının eni 11,22 m və hündürlüyü 13,10 m-dir. Müqəddəs tikilinin sahəsi 128,4 kv.m-dir. Kəbə binasının küncləri Yer kürəsinin qütblərinə — şimal, cənub, şərq və qərb istiqamətlərinə istiqamətlənmişdir. Bu künclərin hər birinin öz xüsusi adı vardır. Kəbənin şərq küncündə Həcərul-əsvəd adlanan qara daş yerləşir. Şimal küncü İraq, qərb küncü Şam, cənub küncü isə Yəmən küncü adlanır.***

Kəbənin cənub-qərb divarının qabağında hündürlüyü 90 sm və eni 1,5 m olan ağ mərmərdən tikilmiş yarımdairə şəkilli divar var. Bu ərazi “Hatim” adlanır.

Kəbənin qapısı yerdən 2 m hündürlükdə şimal-şərq divarında yerləşir. Divarlar içəri üzdən yarıya qədər Quran ayələri ilə bəzədilmiş qranitdən, yarıdan yuxarı isə üzərində qızıl saplarla Quran ayələri işlənilmiş yaşıl parçadan ibarətdir.

Kəbənin içəri hissəsinin təmizlənməsi mərasimi ildə iki dəfə yerinə yetirilir. Bu mərasimlər Ramazan ayının və Həcc mövsümünün başlanılmasından 15 gün əvvəl yerinə yetirilir. Kəbənin açarları Bəni-Şeybə qəbiləsində saxlanılır. İçərinin təmizlənməsi üçün adi süpürgələrdən istifadə olunur. Oranı Zəm-zəm suyu və qızıl gül suyunun qarışığı ilə yuyurlar.



Kəbəni həzrət Adəm Allahın buyruğuyla bəşər tarixində ilk ibadət evi olaraq tikib-qurmuşdur. Nuh peyğəmbərin (ə) dövründə baş verən tufan nəticəsində bu ibadətgah dağılmışdır. Kəbəni Hz. İbrahim peyğəmbər (ə) bərpa edib.

Məhəmməd peyğəmbər (s) hələ hicrətdə – Mədinə şəhərində olarkən Allah buyurmuşdur ki, müsəlmanlar namaz qıldıqları zaman üzlərini Kəbəyə çevirsinlər. Həmin vaxta qədər müsəlmanlar ibadət zamanı üzlərini Beytul-Müqəddəsə, Qüds şəhərinə tuturdular.

Qahirə Universitetinin professoru doktor Hüseyn Kəmaləddin elmi olaraq sübut etmişdir ki, vulkanik fəaliyyət nəticəsində ilk dəfə quru məkan məhz Kəbənin olduğu yerdə yaranıb. Həmin vaxta qədər isə bütün planet su ilə örtülmüşdür. Quru ərazilər buradan yayılmağa, genişlənməyə başlanmışdır. Uzun araşdırmalar nəticəsində 1977-ci ildə Kəbə və Məkkənin bütün quru ərazilərin mərkəzi olduğu rəsmi surətdə sübut edilmişdir. Məlum olmuşdur ki, Kəbənin dayandığı nöqtədə Yerin maqnit mərkəzi yerləşir. Maraqlıdır ki, Yerin maqnit qütbləri dəyişdiyi halda, Kəbədəki maqnit mərkəzi əvvəlki kimi qalır.

# HƏQİQİ KƏBƏ KƏRBƏLADADI



*Ey dərdmənd, dərdə dəva Kərbəladədi,*
*Qorxma mərizin olsa, şəfa Kərbəladədi.*

*Əqlim dedi ki, beyti təvaf eylə hacı ol,*
*Eşqim dedi ki, beyti-Xuda Kərbəladədi.*

*Əqlim dedi şəbi-ərəfatın səfası var,*
*Eşqim dedi ki, şəbi ürəfa Kərbəladədi.*

*Əqlim dedi Minadə dua müstəcabidi,*
*Eşqim dedi həqiqi mina Kərbəladədi.*

*Əqlim dedi ki, səyi-Səfa qəlbi saf edər,*
*Eşqim dedi səfayi-səfa Kərbəladədi.*

*Əqlim dedi ki, zəmzəmin abi-həyatı var,*
*Eşqim dedi ki, abi-bəqa Kərbəladədi.*

*Əqlim dedi yəmin Xudavəndidir həcər,*
*Eşqim dedi cəmali-Xuda Kərbəladədi.*

*Çıx təlli Zeynəbiyyəyə,bax xeyməgahinə,*
*İnsan elə bilir üsəra Kərbəladədi.*

*İllər qara geyib vurasan başə, sinəyə,*
*Allah bilir ki, əsli-əza Kərbəladədi.*

*Hansı ürəkdi titrəməsin qətligahidə,*
*Xəncər əlində Şümri-dəğa Kərbəladədi.*

*Min həccidən gözəldi Hüseynin ziyarəti,*
*Miqati-seyyidiş-şühəda Kərbəladədi.*

*Əqlim dedi nə sözdü ələstu bi rəbbikum,*
*Eşqim dedi bu qövlə bəla Kərbəladədi.*

*Oğlun rəva görənmədi qurbanlığa Xəlil,*
*Yetmiş iki xəzibe-dəma Kərbəladədi.*

*Əqlim dedi Xuda deyib Uduni əstəcib,*
*Eşqim dedi məqame-dua Kərbəladədi.*

*Əqlim dedi ki, Məkkənin ali həvası var,*
*Eşqim dedi o halü həva Kərbəladədi*

*Ya Rəbb nəsib elə bütün həsrət çəkənlərə,*
*İndi tufaqilə rüfəqa Kərbəladədi.*

*Ərş əksi-Kərbəla ilə afaqə fəxr edər,*
*Misbahi-xəmsətun-nücəba Kərbəladədi.*

*Babül-həvaic həzrət Əbbasi-namdar,*
*Əlan əlində qanlı liva Kərbəladədi.*

*Həllale-müşkül oğludur səqqayi-teşnələb,*
*Hər günə hacət olsa rəva, Kərbəladədi.*

*Qalmaz Kəriminin dəxi qəlbində həsrəti,*
*Görsə ki, heyəti-şüəra Kərbəladədi.*

*Şirkət edər əimmə Hüseyn ərbəininə,*
*Hər ərbəin İmam Rza Kərbəladədi.*

*Zəhranı sən Bəqidə axtarma ey bacı,*
*Gəl Kərbəlayə, xeyrün-nisa Kərbəladədi.*

*Əqlim dedi yer üstə hanı bir gözəl məkan,*
*Eşqim dedi ki, Kərbübəla Kərbəladədi.*

*Qalmaz Kərimin dəxi qəlbində həsrəti,*
*Görsə bu heyəti- şüəra Kərbəladədi.*

# AŞURA

*Kədər buludları çökdü üzlərə,*
*Qəlbi qövr etməyə gəldi Aşura!*
*Dərdi sinələrdən çəkib gözlərə,*
*Yanaqdan axıdan seldi Aşura!*

*Ədalət sitəmlə əlbəyaxadır,*
*Eşqin tarixinə ləkə yaxılır.*
*Zəhra qara üstə, qara bağlayır,*
*Heydəri ağladan gündü Aşura!*

*Ağlatdı Rəsulu, ən pak insanı,*
*Sındı son dirəyi Ali-Əbanın.*
*Cənnət Şəbabının, Seyyid-şahının,*
*Qəlbini dağlayan közdü Aşura!*

*O gün, bəndələrin şah sınağıydı,*
*Mərifət camının dolan çağıydı.*
*Başlar bədənlərin son qonağıydı,*
*İqbala qaralan şamdı Aşura!*

*Əsğər, boğazından oxlanan bala,*
*Günahsız qanına boyanan bala,*
*Açmamış qönçəydi tez solan bala,*
*Dərdindən közərdi, yandı Aşura!*

*Əkbəri-növcavan, Abbas ələmdar,*
*Hüseynə cüt qanad, dayaqdı, qəmxar.*
*Kəsdi qol-budağın ədüvvi-xunxar,*
*Əhli-xəyanətə ardı Aşura!*

*Zeynəb izzətinə eyləyib heyrət,*
*Əli qeyrətini duydu biqeyrət.*
*Alçaqlıq, rəzalət etsə də əlbət,*
*İbn-Ziyadlara, dardı Aşura!*

*İmam qiyam etdi, zəfərdir payı,*
*Titrədi Yezidin sitəm sarayı.*
*Səmaya ucaldı İblis harayı,*
*Düşmən bəbəyinə xardı Aşura!*

*Batil hökm eylədi, haqq əyilmədi,*
*«Heyhat, zillət bizdən uzaqdır!»-dedi.*
*İslamı diriltdi, baqilik verdi,*
*İsmini göylərə yazdı Aşura!*

*Kərbəla əzası,məzlumluq deyil,*
*Bəşəri mərdliyə etdirir meyil.*
*Yetmiş iki şəhid önündə əyil,*
*Dinə nəfəs verən ruhdu Aşura!*

*Rizvanam, geymişəm əza libası,*
*Canım da Hüseynin olsun fədası.*
*Gələr Aşurada Mehdi sədası,*
*Üzlərə ağaran, dandı Aşura!*

*Hacı Rizvan İsmayılzadə*

## İslam maarifini öyrənmək istəyənlərin nəzərinə!

İman Mədəni, Maarif Müəssisəsinin təşkil etdiyi “Din təlimi” proqramı artıq internetdə.

Müəssisə www.dintelimi.com saytını tərtib etməklə bundan sonra qiyabi tədris proqramının elektron variantını dinimizi öyrənmək istəyən siz əziz müsəlmanların ixtiyarına təqdim edir.

Maraqlanan oxucular qeydiyyatdan keçdikdən sonra 12 kitabdan ibarət dərslikləri oxuyub, test sınaq imtahanı ilə dini biliklərini sınaya bilərlər.

Suallara məqbul cavab verən oxucular sertifikatla təltif olunurlar.

Bu haqda geniş məlumat saytda verilmişdir.

**WWW.DİNTELİMİ.COM**

**IMAN.GE**
**IMANMEDIA.GE**
**IMANFOTO.COM**
**SUALCAVAB.GE**
**ISLAMMOBILE.BIZ**

*Təsisçi: “ İman” mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

**Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.**